

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 16 (910) ▪ 02 may 2018 | www.vergiler.az | Qiyməti: 60 qəp.

# Bakıda möhtəşəm Formula-1 Azərbaycan Qran-Prisi keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev Qran-Prinin açılış mərasiminə və final yarışına baxıb

**Aprelin 29-da Bakıda Formula-1 Azərbaycan Qran-Prisinin əsas mərhələsi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Formula-1 üzrə dünya çempionatının dördüncü mərhələsinin - Azərbaycan Qran-Prisinin əsas yarışına baxıblar.**

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə yarışın paytaxtın Azadlıq meydanındakı idarəetmə mərkəzində yaradılan şəraitlə tanış olublar. Məlumat verilib ki, böyük ərazini əhatə edən kompleksdə yarışa nəzarət binası, Beynəlxalq Avtomobil Federasiyasının, Formula-1 rəhbərliyinin ofisləri, eləcə də iştirakçıların hər biri üçün dayanacaqlar tikilib. Kompleksdə Paddok klubun üzvləri üçün də yerlər nəzərdə tutulub. Paddok klubun üzvləri burada pitstop əməliyyatlarını rahatlıqla izləyirlər. Məhz bu ərazidə yarışın startı və finişi yerləşir.

Sonra pilotların paradı və himn mərasimi keçirilib, Azərbaycan Respublikasının dövlət himni ifa olunub. Daha sonra Formula-1 Azərbaycan Qran-Prisinin 51 dövrədən ibarət final mərhələsinə start verilib. Final mərhələsində hər birində iki pilot olan on komandanın bir gün əvvəl keçirilən sıralanma yürüşünün nəticəsinə əsasən start xəttinə ən yaxın məsafədə «Ferrari» komandasının pilotu Sebastian Fettel, «Mercedes» komandasının sürücüləri Luis Hamilton və Valtteri Bottas dayanıblar. Bakı trekinin uzunluğu 6 kilometr, ümumu məsafəsi isə 306 kilometrdir. Təhlükəsizliyin ən yüksək səviyyədə təmin olunduğu Bakı treki ən sürətli yarışlar kateqoriyasına daxildir. Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir.

Gərgin idman mübarizəsi şəraitində keçən Qran-Prinin əsas mərhələsində 20 pilotdan 13-ü finiş xəttinə çata bildi. Azərbaycan Qran-Prisinin qalibi «Mercedes» komandasının britaniyalı pilotu Luis Hamilton oldu. Pilot məsafəni 1 saat 43 dəqiqə 44,291 saniyəyə başa vurdu. «Ferrari»nin sürücüsü Kimi Raikkonen ikinci, «Force India» komandasının pilotu Serxio Peres isə üçüncü olublar.

Sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Qran-Prinin qalibi Luis Hamiltona kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təqdim edib. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Konstruktorlar kubokunu «Mercedes» komandasının nümayəndəsi Uilyam Qolbourna təqdim edib.

İkinci yerin sahibi, «Ferrari»nin sürücüsü Kimi Raikkonenə kuboku Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, üçüncü yeri tutan «Force India» komandasının pilotu Serxio Peresə isə kuboku Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov təqdim ediblər.




Bakı trekində qalib gəlməklə Luis Hamilton «Ferrari»nin pilotu Sebastian Fetteli qabaqlayaraq çempionatda liderliyi ələ alıb. Bu qələbə sayəsində xallarının sayını 70-ə çatdıran britaniyalı pilot birinci sıraya yüksəlib. İkinci sıraya geriləyən S.Fettelin aktivində 66 xal var. Azərbaycan Qran-Prisində ikinci yeri tutan «Ferrari»nin pilotu Kimi Raikkonen xal ehtiyatını 48-ə çatdıraraq üçüncü sırada qərarlaşıb. Qran-Pridə üçüncü olan «Force India» komandasının pilotu Serxio Peres isə 9-cu sıraya yüksəlib.

Komandaların yarışında isə «Ferrari» komandası 114 xalla birinci sıradadır. «Mercedes» 110 xalla ikinci, «Red Bull Racing» isə 55 xalla üçüncü sırada qərarlaşıblar.

Xatırladaq ki, 2016-cı ildə Bakıda keçirilən Formula-1 Avropa Qran-Prisinin qalibi «Mercedes»in almaniyalı pilotu Niko Rosberq olub. Ötən il isə Formula-1 Azərbaycan Qran-Prisi «Red Bull Racing» komandasının avstraliyalı pilotu Daniel Rikkardonun qələbəsi ilə başa çatıb.

# Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyaya səfəri

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin dəvəti ilə aprelin 26-da bu ölkəyə səfər edib. Prezident İlham Əliyev Londonda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb. Görüşdə «Şahdəniz» layihəsi üzrə görülən işlər, həmçinin bu ilin iyununda TANAP layihəsinin açılışı ilə bağlı fikir mübadiləsi aparılıb. «Şəfəq-Asiman» strukturu üzrə imzalanmış hasilatın pay bölgüsü sazişi əsasında görülən işlərin intensivləşdirilməsinin əhəmiyyəti qeyd edilib. Söhbət zamanı Azərbaycan ilə BP şirkəti arasında uzun illərdir davam edən əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə olunub.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 26-da Londonda Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycan ilə dostluq qrupunun sədri Bob Blekmən, Lordlar Palatasının üzvü, Azərbaycanın Leyborist dostları qrupunun sədri Lord Devid Evans və İcmalar Palatasının üzvü, Şimali İrlandiya üzrə dövlət nazirinin müavini Devid Morris ilə birgə görüşü olub. Görüşdə Britaniya parlamentinin üzvləri dövlətimizin başçısını prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik ediblər. Lord Devid Evans və Devid Morris ölkəmizdə səsvermə prosesini müşahidə etdiklərini və seçkilərin yüksək səviyyədə təşkil olunduğunu qeyd ediblər. Dövlətimizin başçısı seçkilər zamanı səsvermənin azad, şəffaf və demokratik keçirilməsi üçün hər cür şəraitin yaradıldığını vurğulayıb. Görüşdə Azərbaycanda davamlı inkişafın təmin edildiyi qeyd olunub. Britaniya parlamentinin hər iki palatasında fəaliyyət göstərən Azərbaycanla dostluq qrupları ilə əməkdaşlıq məsələləri müzakirə olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 26-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa və Amerika məsələləri üzrə dövlət naziri Alan Dunkan ilə görüşüb. Söhbət zamanı ikitərəfli və regional əməkdaşlıq, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesi barədə fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı səfər çərçivəsində Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə dövlət naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhed ilə görüşüb. Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafı, xüsusilə investisiya, biznes əlaqələri, kənd təsərrüfatı sahələrində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey ilə görüşü olub. Xanım Tereza Mey prezident seçkilərində qələbəsi münasibətilə İlham Əliyevi təbrik edib. O, Prezident İlham Əliyevlə görüşməkdən məmnunluğunu ifadə edərək bildirib ki, Azərbaycan Prezidentinin bu səfəri iqtisadi və ticarət, enerji, təhlükəsizlik məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacaq. Böyük Britaniyanın Baş naziri SOCAR ilə BP şirkəti arasında imzalanacaq sazişin əməkdaşlığın genişləndirilməsi baxımından önəmini vurğulayaraq Azərbaycanın Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirakına və verdiyi dəstəyə görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin gündəliyi çox genişdir və ölkələrimiz müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, enerji, ticarət, sərmayə qoyuluşu sahələrində fəal əməkdaşlıq həyata keçirir. Dövlətimizin başçısı bildirib ki, hazırda ticarət əlaqələrinin genişləndirilməsi və şaxələndirilməsi istiqamətində fəal iş aparılır və bunun üçün böyük potensial var. Böyük Britaniyanın bir çox şirkətləri Azərbaycanda uzun illərdir ki, fəaliyyət göstərir, SOCAR-BP əməkdaşlığı strateji xarakter daşıyır. İkitərəfli münasibətlərimizin tərəfdaşlıq əlaqələrinə əsaslandığını deyən dövlətimizin başçısı onun Böyük Britaniyaya səfərinin əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə edib.

Sonra Prezident İlham Əliyevin və Baş nazir Tereza Meyin iştirakı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR, «BP Exploration (Azerbaijan) Limited» şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalanıb.

# Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Türkiyə Respublikasına rəsmi səfər edib.

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası keçirilib. Dövlət başçıları iclasda çıxış ediblər.Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Azərbaycanla qardaşlıq əlaqələrini real layihələrlə daha da gücləndirmək əzmindəyik: «Dünyanın ən mühüm nəqliyyat dəhlizlərindən biri olan bu dəmir yolu xəttinin daha da məhsuldar işləməsi üçün əlimizdən gələni etməliyik. Transanadolu təbii qaz boru kəməri - TANAP prioritet layihələrimizdən biridir. Enerji sahəsindəki əməkdaşlığımızın zirvəsi olan bu layihənin açılışı, inşallah, bu ilin iyun ayında olacaq. Məlumdur ki, iyunun 24-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Ona görə, əgər açılışı iyunun əvvəllərində etsək, bu, həm Türkiyəyə, həm də dünyaya səs salacaq. Digər irihəcmli layihə olan Cənub Qaz Dəhlizi ölkələrimizlə yanaşı, bölgəmizə və Avropaya da rifah gətirəcək və enerji təhlükəsizliyinə çox böyük töhfə verəcək. Digər tərəfdən, «Star» neft emalı zavodunun da tikintisi tamamlanacaq. Beləliklə, Azərbaycan Türkiyəyə ən böyük sərmayə yatıran ölkə olacaq».

Rəcəb Tayyib Ərdoğan bildirib ki, biz Türkiyədə hər zaman «Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir» deyərək hərəkət edirik və dar gündə də, yaxşı gündə də qardaşlarımızın yanındayıq.

Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, Türkiyə hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli işində həmişə bizim yanımızda olmuşdur. Biz də öz növbəmizdə bütün məsələlərdə Türkiyənin yanındayıq. Hörmətli Prezidentin də qeyd etdiyi kimi, terrora qarşı mübarizədə, «Zeytun budağı» əməliyyatının aparılmasında həmişə Azərbaycan dövləti və xalqı birmənalı şəkildə Türkiyənin yanında olub. Bu, bizim qardaşlıq borcumuzdur. Bu qarşılıqlı dəstək və bu qədər güclü iş birliyi ölkələrimizi gücləndirir və bölgədə yeni vəziyyət yaradır. Bu gün Türkiyə-Azərbaycan əlaqələri ikitərəfli formatdan çıxıb, artıq regional məna daşıyır və dünya miqyasında gedən proseslərə də çox uğurla təsir göstərir. Bütün beynəlxalq təşkilatlarda biz daim bir-birimizi dəstəkləyirik və bu, bundan sonra da davam edəcək».

Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan «Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yeddinci iclasının Protokolu»nu imzalayıblar. «Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında ətraf mühitin qorunması sahəsində əməkdaşlığa dair Sazişin tətbiqi ilə bağlı ikiillik (2018-2019) İş Proqram, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Rabitə Nazirliyi arasında elektron imza sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında preferensial ticarət sazişi üzrə müzakirələrə dair Anlaşma Memorandumu», «Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında Saziş»i, «Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında şəxsi heyətin mübadiləsinə dair Protokol»u da imzalanıb.

«Coca-Cola» şirkətinin təmsilçiləri Vergilər Nazirliyində olublar — səh. 2

Düzgün mühasibat dövlət orqanları ilə biznes arasında qarşılıqlı etimadı möhkəmləndirir — səh. 3

Vergi ödəyicilərinin tez-tez müraciət etdikləri ünvan - xidmət mərkəzləri — səh. 4

Elektron qaimə-faktura müasir dövrün tələbidir — səh. 4

# «Coca-Cola» şirkətinin təmsilçiləri Vergilər Nazirliyində olublar



Aprelin 26-da vergilər naziri Mikayıl Cabbarov «Coca-Cola» şirkətinin Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə yeni təyin olunmuş baş meneceri xanım Eser Manavın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xanım Eser Manav təyinatdan sonra səfər etdiyi ilk ölkə kimi Azərbaycanı seçdiyini və şirkətin fəaliyyətinin genişləndirilməsi üçün respublikamızda geniş imkanlar olduğunu qeyd edib, vergilər sahəsində qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi istiqamətində aparılan işləri yüksək qiymətləndirib. Vergilər naziri ölkəmizdə əlverişli iqtisadi mühitin mövcud olduğunu vurğulayıb, «Coca-Cola» şirkətinin Azərbaycandakı fəaliyyəti və həyata keçirdiyi sosial yönümlü layihələri qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, Vergilər Nazirliyinin müzakirələr aparmağa hər zaman açıq olduğudiqqətə çatdırılıb.

# Qanun pozuntularına qarşı ciddi tədbirlər görülür

Son zamanlar ölkəmizin paytaxtında və bölgələrdə pərakəndə ticarət müəssisələrində aksiz markası olmayan və saxta aksiz markaları ilə markalanmış malların (əsasən, tütün məmulatları və spirtli içkilər) satışı hallarının artdığı müşahidə edilir. Vergilər Nazirliyi tərəfindən aparılan müşahidələr zamanı belə məhsulların satışının həyata keçirildiyi əsas obyektlərin dislokasiyası müəyyən edilib.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən paytaxt ərazisində yerləşən, alkoqollu içkilərin və tütün məmulatlarının satışı sahəsində ixtisaslaşdırılmış 15 ticarət obyektində aparılmış vergi nəzarəti tədbirləri zamanı xeyli və külli miqdarda aksiz markası ilə markalanmamış və saxta aksiz markaları ilə markalanmış məhsulların qeyri-qanuni satılması və satış məqsədilə saxlanması faktları aşkar edilib və həmin mallar müsadirə olunub.

Faktlarla bağlı Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində Cinayət Məcəlləsinin 213-1-ci maddəsi ilə cinayət işi başlanılıb və Yasamal rayon məhkəməsinin qərarı ilə qeyri-qanuni əməlləri törətmiş O.Məmmədov, Ç.Rəfiyev və F.Məmmədov barəsində həbs qətimkan tədbiri seçilib. Qeyd olunmalıdır ki, eyni qanun pozuntularına yol verdikləri üçün həmin şəxslər əvvəllər də məsuliyyətə cəlb edilmişdilər.

Alkoqollu içkilərin və tütün məmulatlarının aksiz markası olmadan satışı ilə məşğul olma hallarının kütləviliyi onların mütəşəkkil xarakter daşıdığına və həmin sahədə geniş bir cinayətkar şəbəkənin fəaliyyət göstərdiyinə dəlalət edir. Aksiz markası olmadan, həmçinin aksiz markalarının saxtalaşdırılması yolu ilə istehlak bazarına çıxarılan məhsullar vətəndaşların sağlamlığı üçün təhlükə törətməklə yanaşı, qanuni fəaliyyət göstərən digər vergi ödəyicilərinə münasibətdə haqsız rəqabətə səbəb olur. Cinayət şəbəkəsində birləşmiş belə «işbazlar» qeyri-qanuni məhsulların istehsalı, həmçinin qiymətli kağız hesab edilən aksiz markalarının saxtalaşdırılması ilə məşğul olur, dövlətin və cəmiyyətin mənafelərinə ciddi zərər vururlar.

Vergilər Nazirliyi hüquqi və fiziki şəxslərin nəzərinə bir daha çatdırır ki, aksiz markası ilə markalanmalı olan malların aksiz markası olmadan və ya saxta aksiz markaları ilə satışı qanun pozuntusudur. Qanunvericiliyin müddəalarının pozulmasına görə məsuliyyət yalnız qeyri-qanuni məhsulların istehsalı və idxalı ilə məşğul olanlara deyil, həmçinin bu cinayət şəbəkəsinə cəlb edilmiş hər kəsə, o cümlədən pərakəndə satışla məşğul olan şəxslərə də şamil edilir. Qanun pozuntusuna yol vermiş şəxslər cinayət məsuliyyəti daşıyır və onlara qarşı qanunvericiliklə müəyyən edilmiş müddətlərdə azadlıqdan məhrumetmə kimi ciddi məsuliyyət tədbirləri nəzərdə tutulur.

Vergilər Nazirliyi aksiz markası olmadan və ya saxta aksiz markası ilə markalanmış məhsulların satışı faktlarının aşkar olunması istiqamətində vergi nəzarəti tədbirlərini davam etdirəcək və qanun pozuntusu hallarına yol vermiş şəxslərə qarşı qanunvericilik çərçivəsində sərt tədbirlər görüləcəkdir.

Aksiz markası ilə markalanmalı olan malların istehlakçıları bilməlidirlər ki, belə məhsullara aksizlərin tətbiqinin əsas məqsədlərindən biri onların istehlakını məhdudlaşdırmaq, eləcə də sağlamlığa zərərli məhsulların qeyri-qanuni və keyfiyyətsiz istehsalının qarşısını almaq, istehsal mənşəyini müəyyən etməkdir.

Aksiz markası olmadan və ya saxta aksiz markası ilə markalanmış məhsulları almaqla istehlakçı keyfiyyəti, istehsal və saxlanma şəraiti bəlli olmayan və sağlamlıq üçün zərərli məhsullarla üzləşmə təhlükəsi ilə qarşılaşır, eyni zamanda aksizsiz məhsulların qaçaqmalçılığının və istehlak bazarında saxta məhsulların satışının genişlənməsinə və dövlət büdcəsinin gəlirlərdən məhrum olmasına şərait yaradır.

Vətəndaşlar belə malların satışı faktlarına rast gəldikdə Vergilər Nazirliyinə müraciət etməlidir. Siz bununla həm özünüzü qorumuş olacaqsınız, həm də dövlət büdcəsinə vergilərin ödənilməsindən yayınmaların qarşısını almağa xidmət edəcəksiniz.

# Vergilər Nazirliyində təlim

Aprelin 27-də Vergilər Nazirliyində «Maliyyə bazarlarının təhlili və proqnoz yönətmələri» mövzusunda təlim keçirilib. Təlimdə Vergilər Nazirliyinin Mərkəzi Aparatının, Vergilər Nazirliyinin Tədris Mərkəzinin, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC), bir sıra təşkilatların nümayəndələri və ekspertlər iştirak ediblər.

Təlimdə Türkiyənin İşıq Universitetinin rektoru, professor dr. Cemal İbiş ümümiqtisadi təhlil və pul axını haqqında məruzə ilə çıxış edib. Professor mühasibatlığın tədrisi və maliyyə siyasətinin formalaşdırılması sahəsində Türkiyə təcrübəsi ilə bağlı ətraflı məlumat verib. Təlim iştirakçıları bankçılıqda aktiv passiv üsuluna giriş, bankın balans hesabatını tanımaq, bankın balans hesabatının üzləşdiyi risklər, aktiv passiv üsulunda fundamental anlayışlar, fundamental analiz, makroiqtisadi analiz, sektor və firma analizi bazar psixologiyası, trend anlayışı, makroiqtisadi göstəricilər və onların şərhi kimi mövzuları dinləyiblər. Bununla yanaşı, iştirakçılar Türkiyədə mühasib ixtisasına yiyələnmək, müssisələrdə mühasibatlıq işinin və uçot sisteminin təşkili üçün tələb olunan mərhələlər, mühasibat uçotunun mühüm komponentləri o cümlədən, Türkiyədə maliyyə müşaviri vəzifəsi üçün tələb olunan biliklər barədə məlumatlar əldə ediblər.

Təlim zamanı vergi idarəçiliyi sistemində inzibatçılığın müasir standartlar çərçivəsində təşkili, maliyyə bazarlarının təhlilinin iqtisadi mahiyyəti, təşkilati funksiyaları, eləcə də, təcrübi aspektləri barədə də biliklər təlim iştirakçılarının diqqətinə çatdırılıb.

Təlim interaktiv formada keçirilib, müzakirələrin aparılmasına və qarşılıqlı maraq doğuran fikirlərin mübadiləsinə geniş yer ayrılıb və iştirakçıların sualları cavablandırılıb.

Qeyd olunmalıdır ki, Mərkəz dövlət vergi orqanlarında çalışan əməkdaşların bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsini və təkmilləşdirilməsini təmin etmək üçün müxtəlif tədbirlər həyata keçirir. Öz fəaliyyəti çərçivəsində Tədris Mərkəzi yerli Universitetlərlə yanaşı, xarici ali təhsil müəssisələri ilə də əməkdaşlıq edir. Türkiyənin İşık Universiteti Vergilər Nazirliyinin Tədris Mərkəzinin əməkdaşlıq etdiyi universitetlərdəndir.

# Vergilər, Daxili İşlər nazirliklərinin və Baş Prokurorluğun mətbuat xidmətləri birgə məlumat yayıblar

Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən aparılmış səyyar vergi yoxlaması nəticəsində «Araz İNC» MMC-də 1 milyon 436 min manat məbləğində vəsaitin dövlət büdcəsinə ödənilməməsi faktı üzrə 2013-cü il 7 iyun tarixdə Cinayət Məcəlləsinin 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddəsi ilə cinayət işi başlanılıb.

İstintaq zamanı cəmiyyətin fəaliyyətinə faktiki rəhbərlik etmiş Abdullayev Hüseyn Abbas oğlu iş üzrə Cinayət Məcəlləsinin qeyd edilən maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilib və Azərbaycan Respublikası ərazisindən kənarda istintaqdan gizləndiyi üçün barəsində məhkəmə qərarı əsasında həbs qətimkan tədbiri seçilməklə «İnterpol» xətti ilə beynəlxalq axtarış elan olunub.

AZƏRTAC xəbər verir ki, Vergilər, Daxili İşlər nazirliklərinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin yaydıqları birgə məlumatda 2016-cı il 3 oktyabr tarixdə H.Abdullayevə, ümumilikdə, 1 milyon 810 min manat məbləğində vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırması və xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq almadan tikinti-quraşdırma işlərini həyata keçirərək 966 min manat məbləğində gəlir əldə etməsinə əsaslı şübhələr müəyyən edildiyindən Cinayət Məcəlləsinin 192.2.2-ci (qanunsuz sahibkarlıq) və 213.2.2-ci maddələri ilə yenidən ittiham elan edilməsi barədə qərar çıxarıldığı bildirilir. Təqsirləndirilən şəxs H.Abdullayev Türkiyə Respublikası ərazisində tutularaq 2018-ci il 22 aprel tarixdə Azərbaycan Respublikasının hüquq mühafizə orqanlarına təhvil verilib. Cinayət işi üzrə H.Abdullayev özünün seçdiyi müdafiəçinin iştirakı ilə dindirilib və Cinayət Məcəlləsinin qeyd edilən maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə ona həmin maddələrdə nəzərdə tutulan ittiham elan edilib.

Bundan başqa, ayrı-ayrı vətəndaşların Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə daxil olmuş müraciətləri əsasında 2018-ci il 14 fevral tarixdə başlanmış cinayət işi üzrə H.Abdullayevin 2006-cı ildən 2018-ci ilədək olan müddət ərzində faktiki nəzarət etdiyi «Araz-İnşaat» ASC-də onun tapşırığına əsasən müəssisənin idarə olunmasını həyata keçirən Babayev Namiq İsmixan oğlu və qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında cəmiyyətə məxsus obyektləri müxtəlif vaxtlarda ayrı-ayrı şirkətlərə icarəyə verərək ümumilikdə 1 milyon 374 min manat məbləğində gəlirlərin cəmiyyətin kommunal xidmət və sair xərclərinin ödənilməsinə sərf olunmasına dair digər səhmdarlara yalan məlumat verməklə 13 min 373 manat məbləğində dividentləri vahid qəsdlə ələ keçirib zərərçəkmiş şəxslərə xeyli miqdarda maddi ziyan vurmaqla dələduzluq etməsinə şübhələr müəyyən edilib. Eləcə də H.Abdullayevin dəfələrlə N.Babayev vasitəsilə, daha sonra isə Almaniyadan istifadəsində olan telefondan «Autist Uşaqların Reabilitasiyasına Kömək» İctimai Birliyinin sədri Elnur Məmmədova zəng edərək onun və ailə üzvlərinin ünvanına nalayiq ifadələr işlədib tələblərinə əməl etməyəcəyi halda onları məhv edəcəyi ilə hədələyərək icarə müqaviləsi şərtlərinə görə hər ay ödəməli olduğu 3 min manat icarə haqqı əvəzinə onun nümayəndələrinə 6 min manat pul ödəməsini hədə-qorxu ilə tələb etməsinə əsaslı şübhələr müəyyən edildiyindən o, Cinayət Məcəlləsinin 178.2.1-ci (dələduzluq), 178.2.2-ci, 178.2.4-cü, 182.2.1-ci (hədə-qorxu ilə tələb etmə), 182.2.2-ci və 182.2.4-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə həmin maddələrdə nəzərdə tutulmuş ittiham elan edilib.

Təqsirləndirilən şəxs H.Abdullayevlə zərərçəkmiş şəxslər arasında müdafiəçisinin iştirakı ilə üzləşdirmə istintaq hərəkətləri aparılıb, eləcə də onun Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulan bütün hüquqları tam təmin edilib və zəruri təminatlarla əhatə olunub.

Hazırda qeyd edilən cinayət işləri üzrə Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində yaradılmış istintaq-əməliyyat qrupu tərəfindən zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Bakı Baş Gömrük İdarəsində sahibkarlarla görüş

Aprelin 28-də Bakı Baş Gömrük İdarəsində Prezident İlham Əliyevin 2018-ci il 20 aprel tarixli «Ölkədə idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında» Sərəncamından irəli gələn məsələlərin müzakirəsi ilə bağlı sahibkarlarla görüş keçirilib.

Bakı Baş Gömrük İdarəsinin rəisi Vüsal Novruzov görüşün məqsədi barədə qısa məlumat verərək, Prezident İlham Əliyevin imzaladığı sərəncamdan irəli gələn məsələlərin həlli, idxal-ixrac əməliyyatları zamanı vergi uçotunun dəqiq aparılması məqsədilə gömrük və vergi orqanları arasında əlaqələrin səmərəli şəkildə qurulması istiqamətində görüləcək işlərdən, bu sahədə şəffaflığın təmin edilməsində sahibkarların rolundan bəhs edib.

Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsinin rəisi Mirqasım Vahabov ölkəmizin davamlı iqtisadi inkişafının təmin edilməsində Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsi olaraq idxal-ixrac əməliyyatlarının, dövlət büdcəsi gəlirlərinin artdığını və bu sahədə sahibkarların fəaliyyətinin mühüm rol oynadığını bildirib. Prezident İlham Əliyevin imzaladığı sərəncamdan sonra idxal-ixrac əməliyyatlarına nəzarət sisteminin daha da təkmilləşəcəyini bildirən Mirqasım Vahabov yeni sistemin şəffaflığın təmin olunması, vergi uçotunun düzgün aparılması və sahibkarların fəaliyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayacağını vurğulayıb. İdarə rəisi yeni sistemin tətbiqi ilə birlikdə ölkəmizin gömrük və vergi orqanları arasındakı əlaqələrin səmərəliliyinin artacağını, bunun da sahibkarlığın inkişafına müsbət təsir göstərəcəyini bildirib.

Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti departamentinin rəisi Natiq Şirinov sahibkarlıq subyektlərinə dövlət tərəfindən münbit şərait yaradıldığını, vergi orqanlarının da bu istiqamətdə təxirəsalınmaz tədbirlər həyata keçirdiyini diqqətə çatdırıb. Vergilər Nazirliyinin sahibkarlar üçün 65-dən çox elektron xidmət təklif etdiyini bildirən departament rəisi bunun da sahibkarlığın inkişafı və şəffaflığın təmin olunmasında müsbət rol oynadığını vurğulayıb. Natiq Şirinov bəzi hallarda vergi qanunvericiliyi tələblərinin pozulduğu, vergilərin vaxtında və düzgün ödənilməsinin təmin edilmədiyini bildirərək yeni sistemin tətbiqinin həm də bu sahədə müsbət nəticələr əldə edilməsinə şərait yaradacağını qeyd edib.

Daha sonra görüşdə Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında imzalanmış «Üçüncü şəxslər üçün mal idxal edən şəxslərin fəaliyyətinə nəzarət edilməsi haqqında» Razılaşma Protokolunda nəzərdə tutulan vəzifələrin icrası ilə bağlı müzakirələr aparılıb, eləcə də sahibkarları maraqlandıran suallar ətraflı cavablandırılıb.

# Xarici təcrübələr öyrənilir

Vergilər Nazirliyinin Tədris Mərkəzinin dəvəti ilə Rusiya Federasiyası Hökuməti nəzdində Maliyyə Universitetinin «Risklərin təhlili və iqtisadi təhlükəsizlik» fakültəsinin dekanı, professor Vladimir İvanoviç Avdiyski Bakıya səfər edib. Səfərin əsas məqsədi vergi cihayətlərinin ibtidai araşdırılması sahəsində çalışan mütəxəssislər üçün təlim keçmək idi. Aprelin 30-da aparılmış təlimin mövzusu cinayətin və terrorçuluğun maliyyələşdirilməsi niyyəti ilə əldə edilmiş pul vəsaitlərinin yuyulmasına, çirkli pulların və qanunsuz əmlakın leqallaşdırılmasına qarşı görülən tədbirlərə, eləcə də iqtisadi sahədə hüquq pozuntusunun aşkarlanmasına və təhqiqatı ilə bağlı təcrübə mübadiləsinin aparılmasına həsr edilmişdi.

Təlimdə Vergilər Nazirliyinin Hüquq departamentinin, Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin, Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin və digər müvafiq strukrur vahidlərinin əməkdaşları iştirak ediblər.

Təlim zamanı mövzunun nəzəri aspektləri ilə yanaşı, praktiki fəaliyyətdə qarşıya çıxan məsələlər müzakirə edilib, tövsiyələr verilib.Prezident İlham Əliyevin aprelin 23-də imzaladığı Fərmanla yerli və xarici investorlar üçün Azərbaycan iqtisadiyyatının cəlbediciliyini daha da artırmaq üçün Mülki Məcəlləyə dəyişikliklər təsdiq edilib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Ayaz Çaparlı bildirmişdir ki, bu dəyişikliyə əsasən, həyata keçirilən əməliyyatlar nəticəsində alıcıya vurulan zərərə görə, direktorlar məsuliyyətə cəlb edilə bilərlər. İcraçı direktor isə səhmdarların təmin olunan iddialarına görə cərimələnə, həbs edilə və ya vəzifəsindən kənarlaşdırıla bilər. Bundan əlavə, səhmdarın müvəffəqiyyətli iddiası nəticəsində məhkəmə əməliyyatı (əqdi) ləğv oluna bilər.

Səhmdar cəmiyyətinin iştirakçısı öz payını satdığı halda öncə mövcud iştirakçılara təklif etməlidir. Həmçinin səhmdar cəmiyyətinin 50 faiz iştirak payını alan potensial alıcı tərəfindən digər səhmdarlara tender elan edilməlidir. Məhdud məsuliyyətli cəmiyyətin aktivlərinin 51 faizinin satıldığı zaman isə cəmiyyətin iştirakçılarının razılığı tələb edilir. Bundan əlavə, iştirak payının 5 faizini təşkil edən səhmdar cəmiyyətinin iştirakçıları gündəliyə yeni müzakirə mövzularını əlavə edə bilərlər. Cəmiyyətin direktorlar şurası yalnız direktorlar şurasının üzvlərindən ibarət audit komitəsini ehtiva etməlidirlər.

Qanunvericiliyə edilmiş dəyişikliklər Azərbaycanda cəlbedici biznes və investisiya mühitinin əlverişliyinin daha da artırılması və beynəlxalq reytinqlərdə, o cümlədən «Doing Business 2019» hesabatında ölkəmizin mövqeyinin gücləndirilməsi üçün münbit şərait yaradacaq.

**Fəxriyyə İKRAMQIZI**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-mart ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsilə apardıqları əməliyyatların dəyəri 18% artaraq **296,7 mln.** manat təşkil edib.
- Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən mayın 29-da dövlət əmlakının özəlləşdirilməsi üzrə növbəti hərraca **75** dövlət əmlakı çıxarılacaq.
- «Şimal-Cənub» Beynəlxalq Nəqliyyat Dəhlizi vasitəsilə Azərbaycan ərazisindən daşınan İran mənşəli neft və neft məhsullarına **50** faizə qədər güzəştli tariflər razılaşdırılıb.
- «Azərbaycan Dəmir Yolları» QSC **50** ədəd yeni lokomotiv və **1600** ədəd yeni yük vaqonu almağı planlaşdırır.

# Düzgün mühasibat dövlət orqanları ilə biznes arasında qarşılıqlı etimadı möhkəmləndirir

## Aprelin 28-29-da Vergilər Nazirliyinin Şamaxıdakı Tədris Mərkəzində «II Milli Mühasiblər Forumu» keçirilib

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Vergilər Nazirliyi, Auditorlar Palatası, «İqtisadi Resursların Öyrənilməsi» İctimai Birliyi, İqtisadi Araşdırmalar və Tədris Mərkəzi, Gənc Mühasiblər Birliyi və «SİNAM» şirkətinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə dövlət qurumlarının nümayəndələri, 300-ə yaxın müəssisə və təşkilatın baş mühasibləri, mühasibat sahəsində çalışan alimlər, müəssisə rəhbərləri, dövlət və qeyri-hökumət təşkilatlarının rəhbərləri iştirak etmişlər.



Tədbirin açılış mərasimində Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev çıxış edərək bildirmişdir ki, «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi»ndə nəzərdə tutulmuş kompleks tədbirlər sırasında hesabatlılığın təkmilləşdirilməsi və şəffaflığın artırılması mühüm istiqamət kimi müəyyənləşdirilmişdir. Bu baxımdan, ölkəmizdə maliyyə nəzarətinin, maliyyə və vergi intizamının möhkəmləndirilməsi, maliyyə vəsaitlərindən istifadə olunmasında hesabatlılığın və şəffaflığın müasir standartlar əsasında yüksək səviyyədə qurulması ilə bağlı məsələlərin müzakirəsi təqdirəlayiqdir.

Qeyd edilmişdir ki, forumun keçirilməsində məqsəd demokratik cəmiyyətin mühüm amili kimi qiymətləndirilən şəffaflığın artırılmasına, maliyyə hesabatlılığı sahəsində qabaqcıl təcrübənin tətbiqinə, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən mühasibat uçotunun beynəlxalq standartlarının tətbiqinin stimullaşdırılmasına töhfə verməkdir: «Forum iştirakçıları vergi qanunvericiliyi və inzibatçılığı sahəsində aparılan islahatlar, kommersiya qurumlarında mühasibat uçotunun problemləri, mühasibat uçotu proqramları təminatında müasir çağırışlar, maliyyə hesabatının beynəlxalq standartlarının tətbiqində təhsil və sertifikasiyanın rolu və bir çox aktual mövzularda ətraflı məlumat əldə edəcək, müzakirələr aparacaqlar. 180-dən artıq şirkəti təmsil edən maliyyə mütəxəssisini və mühasibi bir araya gətirən forum qarşılıqlı təcrübə mübadiləsi üçün gözəl imkan yaradır».

### Biznes nümayəndələri öz fəaliyyətini və uçot sistemini şəffaflaşdırmalıdır...

Vergilər nazirinin 1-ci müavini Sahir Məmmədxanov çıxışında bildirmişdir ki, milli mühasibatın və vergi sisteminin qarşısında duran mövcud problemlərin, respublikada maliyyə, uçot, audit işinin dünya standartlarına uyğunlaşdırılması istiqamətində atılacaq effektiv addımların forumda müzakirəsi olduqca faydalıdır: «Vergilərin düzgün hesablanması və dövlət büdcəsinə vaxtında köçürülməsi birbaşa mühasiblərin vəzifə öhdəliyidir. Bu baxımdan, dövlət vergi siyasətində aparılan islahatların məqsəd və vəzifələrini, vergilər və vergitutma sahəsində baş verən dəyişiklikləri geniş auditoriyaya çatdırmaq məqsədilə mühasiblərin toplandığı bu forum vergi orqanları üçün də çox səmərəli və işgüzar bir mühitdir».

Qeyd olunmuşdur ki, Vergilər Nazirliyinin rəhbərliyi tərəfindən vergi siyasətində əsaslı islahatların növbəti mərhələsinin əsas istiqamətləri və prinsipləri məlumdur: «Nazirlik vergi ödəyiciləri ilə münasibətdə şəffaflığın təmin olunmasını başlıca prinsip kimi qəbul edib. Bu, həm vergi orqanlarının, həm də vergi ödəyicilərinin fəaliyyətini əhatə edir. Vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi üçün hər iki tərəf öz fəaliyyətini yeni formatda qurmalıdır. Biz, ilk növbədə, biznes nümayəndələrindən öz fəaliyyətini və uçot sistemini şəffaflaşdırmağı, təsərrüfat əməliyyatlarını tam şəkildə leqallaşdırmağı gözləyirik. Vergilərini tam həcmdə və vaxtında ödəyən hər bir intizamlı ödəyici vergi orqanlarının etibarlı tərəfdaşı olacaq və onlar daim dəstəklənəcəkdir. Ümumiyyətlə, intizamlı ödəyici ilə vergidən yayınmağa cəhd göstərən arasında yanaşmada fərq olmalıdır. Hər kəs bilməlidir ki, qanunlar çərçivəsində işləmək həmin şəxsi cərimə və sanksiyalardan uzaq tutmaqla yanaşı, həm də faydalı olacaq. Bu yanaşma istər qanunvericilikdə, istərsə də inzibatçılıqda əksini tapacaqdır».

Vurğulanmışdır ki, vergidən yayınma ilə mübarizə sərtləşdiriləcəkdir: «Vergi hesabatlarına biləərəkdən saxta məlumatları daxil edənlərə, vergidən yayınmağa cəhd göstərənlərə qanunun müəyyən etdiyi çərçivədə sərt yanaşma olacaqdır. Çünki vergi orqanlarının qarşısında duran əsas vəzifələrdən biri də «kölgə iqtisadiyyatının», habelə ikili mühasibatın qarşısını almaq, vergiyə cəlb olunan dövriyyələrin gizlədilməsi və vergidən yayınma hallarını aradan qaldırmaqdır. Bütün bunların qarşılığında Vergilər Nazirliyi ödəyicilərə yanaşmanın ədalətli, bərabər şərtlər və qanunun müəyyən etdiyi öhdəliklər çərçivəsində olacağını, münasibətlərin qarşılıqlı etimada əsaslanacağını, keyfiyyətli xidmətlər göstəriləcəyini vəd edir. Vergi orqanları hər bir sahibkarın qanuni tələblərinin həllinə kömək göstərməyə hazır olacaq, ölkənin vergi qanunvericiliyi sahibkarların fikir və təklifləri nəzərə alınmaqla təkmilləşdiriləcəkdir».

Bildirilmişdir ki, vergi qanunvericiliyinin təkmilləşdirilməsinin mühüm bir istiqaməti uçot sahəsi ilə bağlıdır. Amma bu proses yalnız vergi sistemi ilə məhdudlaşmamalıdır, Azərbaycanda mühasibat uçotu, audit işinin yenilənməsi vergi qanunvericiliyinin təkmilləşdirilməsi ilə parael aparılmalıdır: «Son zamanlar vergi sistemində yeni texnologiyalar tətbiq edilir. Bunların sırasında elektron auditin rolunu xüsusi qeyd etmək istərdim. Müasir dövrdə şəffaf elektron audit sisteminin, intellektual təhlil texnologiyalarının tətbiqi vergi yoxlamalarında insan faktoru ilə bağlı səhvlərin, vaxt itkisinin və neqativ halların aradan götürülməsinə imkan verir, könüllü əməletmə intizamını yüksəldir. Lakin bunun üçün həm də vergi ödəyicilərinin mühasibat və uçot sistemlərinin təkmilləşdirilməsinə və elektronlaşdırılmasına zərurət var. Bu baxımdan, kommersiya qurumlarında uçotun təkmilləşdirilməsi, informasiya texnologiyalarının genişmiqyaslı tətbiqi olduqca vacibdir. Bununla yanaşı, ölkəmizdə maliyyə, uçot, audit işinin dünya standartlarına uyğunlaşdırılması və dünya uçot praktikasında məqbul sayılan sistemlərə keçmək həm də yüksək səviyyəli mütəxəssislərin, peşəkarların olmasını tələb edir. Buna görə də müvafiq sahələr üzrə yüksək ixtisaslı kadrların hazırlanmasına, kadrların təkmilləşdirilməsinə xüsusi diqqət yetirilməlidir».

> Vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi üçün hər iki tərəf öz fəaliyyətini yeni formatda qurmalıdır

S.Məmmədxanov bu forumun dövlət vergi orqanlarının qarşısında dayanan islahatların istiqamətlərinin dəqiqləşdirilməsinə, yeni istiqamətlərin müəyyən edilməsinə, prioritetlərin yenidən nəzərdən keçirilməsinə də öz töhfəsini verəcəyinə əminliyini ifadə etmişdir. «Çünki biz vergi islahatlarını yalnız dövlət vergi orqanlarının mövcud təcrübə və məlumatları əsasında deyil, qarşılıqlı - sahibkarların, mühasiblərin və digər maraqlı tərəflərin təcrübələrini, problemlərini və təkliflərini nəzərə almaqla həyata keçirmək niyyətindəyik».

### Hər bir mühasibin vergi ilə bağlı öhdəlikləri və məsuliyyəti var

«Gilan Holdinq»in maliyyə direktoru Fuad Kərimov bildirmişdir ki, dövlət və özəl sektor arasında birgə əməkdaşlıq artırılmalı, müxtəlif təlimlər təşkil edilməlidir: «Hazırda Vergilər Nazirliyinin «İmza qrupu» adlı layihəsi var, bu, yaxşı ənənənin başlanğıcıdır. Bundan başqa, yerli və beynəlxalq institutlar səviyyəsində təlimlər təşkil edirik. Bu cür tədbirlərin, forumların keçirilməsi ümumi işə fayda verir, mühasibat uçotu sahəsində məlumatların toplanılması, yüksək texnologiyaların öyrənilməsi baxımından çox vacibdir».

Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev diqqəti banklar üçün müəssisə və təşkilatların, kiçik və orta biznesin kreditləşdirilməsinin əhəmiyyətinə yönəltmişdir: «Düzgün və doğru məlumatlara əsaslanan hesabat, uçot aparmayan müəssisələrin kreditləşdirilməsi olduqca mürəkkəbdir. Banklar öz fəaliyyətində beynəlxalq standartları tətbiq edən, iqtisadiyyatın bütün sahələrini həm texnoloji cəhətdən təchiz edən, həm də uçot və hesabatlarını maliyyə texnologiyalarının tətbiqi ilə həyata keçirən yeganə biznes sahəsidir. Uçot və maliyyə sisteminin təkmilləşdirilməsi təkcə mühasiblərin deyil, hamının birgə işi kimi iqtisadi inkişafın mühüm elementinə çevrilib. Qarşıdakı dövr üçün arzumuz iqtisadiyyatın bütün sahələrində şəffaf mühasibat uçotunun tətbiqinə nail olmaqdır».

Rusiya Federasiyasının Maliyyə Universitetinin Risklərin analizi və iqtisadi təhlükəsizlik fakültəsinin dekanı, professor Vladimir Avdiyski Azərbaycan dövlətinin sahibkarların maliyyə savadlılığını artırmaq üçün göstərdiyi təşəbbüsləri yüksək qiymətləndirmişdir. Qeyd etmişdir ki, qeyri-dəqiq aparılan hesabatlardan, maliyyə uçotlarından çox şey itirə biləcəyi üçün dövlət biznesdə hesabatlılığın, şəffaf ödəmələrin olmasında, mühasibat uçotunun düzgün və dəqiq aparılmasında maraqlıdır. Sahibkar da dövlətin ona yaratdığı şəraiti nəzərə alaraq qarşılıqlı etimad şəraitində üzərinə düşən vəzifəni yerinə yetirməlidir.

Türkiyənin İşık Universitetinin rektoru, professor Cemal İşık bildirmişdir ki, vergi orqanı, audit institutu, mühasiblər icması və elmi-iqtisadi cəmiyyətin bir araya gəlməsi sevindirici haldır: «Azərbaycan dövləti yaxşı ənənənin əsasını qoymuşdur, mühasiblərin birbaşa iştirakı ilə müzakirələrin aparılması problemlərin həllinə öz töhfəsini verəcəkdir».

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professoru Zahid Məmmədov, Şamaxı Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini Qasım Qasımov, Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxasının rəisi Namiq Cəlilov bu cür tədbirlərin mühasiblər, auditorlar, vergi orqanları və sahibkarlar üçün qarşılıqlı əməkdaşlıq platformasına çevrildiyini vurğulamış, forumda müzakirə olunan məsələlərin iqtisadiyyatımızın inkişafına, müasir yanaşmaların tətbiqinə geniş stimul verəcəyini diqqətə çatdırmışlar.

### Şəffaflığın artırılması hökumətin əsas hədəflərindəndir

Forum öz işini panel iclaslarda davam etdirmişdir.

«Vergi qanunvericiliyi və hesabatlılıq» mövzusunda keçirilən iclasda çıxış edən Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov «Şəffaflıq, Hesabatlıq, Audit» mövzusunda məruzə etmişdir. Bildirmişdir ki, şəffaflığın artırılması nəticəsində ölkə iqtisadiyyatına daha çox xarici investor cəlb etmək mümkün olur, şəffaflıq lazımi səviyyədə olmadıqda isə istər xarici, istərsə də daxili mənbələrdən investisiya cəlbediciliyi əsaslı dərəcədə zəifləyir. V.Novruzov çıxışında rəhbərlik etdiyi qurum tərəfindən icrasına başlanmış və davam etdirilən əsas tədbirlər barədə forum iştirakçılarına ətraflı məlumat vermişdir.

«Vergi qanunvericiliyi və mühasibat uçotu» mövzusunda keçirilən sessiyada çıxış edən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanov, Vergilər Nazirliyinin Tədris Mərkəzinin elmi-tədqiqat işləri üzrə rəis müavini Mirəli Kazımov, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Elnur Musayev, «KPMG-Azərbaycan» audit şirkətinin vergi və hüquq departamentinin meneceri Qaya Əzimov, «Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqası»nın sədri Sahib Məmmədov, «Professional mühasib» jurnalının baş redaktoru, audit mütəxəssisi Mehdi Babayev və digərləri müzakirə edilən mövzularla bağlı öz fikir və mülahizələrini söyləmişlər.

### Vergi hesabatı və maliyyə hesabatı formaları arasında uyğunluq təmin edilməlidir

«Vergi qanunvericiliyi və mühasibat uçotu», «Büdcə təşkilatları, bələdiyyə və QHT sektoru kontekstində mühasibat uçotuna dair dövlət tənzimlənməsi», «Kommersiya qurumlarında mühasibat uçotunun problemləri», «Mühasibat uçotu proqramları təminatında müasir çağırışlar», «Maliyyə hesabatlarının beynəlxalq standartlarının tətbiqində təhsil və sertifikasiyanın rolu» mövzularına həsr edilmiş sessiyalarda konkret sahələri təmsil edən mütəxəssislərin çıxışları dinlənilmişdir. Müzakirələr zamanı bu məsələlərə xüsusi diqqət yetirilmişdir:

- transfer qiymətləri;
- ƏDV-nin tətbiqi və diferensiallaşdırılması;
- istehsalatda vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydaları;
- büdcə təşkilatlarında uzunmüddətli aktivlərin qeydiyyatı prosesində yaranan problemlər və onların aradan qaldırılması yolları;
- büdcə təşkilatlarında əsas vəsaitlərin köhnəlməsi və cari təmiri ilə bağlı problemlər;
- dövlət zəmanətli kreditlər üzrə daxili nəzarət sisteminin auditi;
- büdcə təşkilatlarında uçot və hesabatlılığın vəziyyəti;
- pul axınlarının idarə olunması problemləri, mühasibat uçotunun qurulmasında Türkiyə təcrübəsi;
- kommersiya təşkilatlarında yeni hesablar planının tətbiqi ilə bağlı ümumi problemlər;
- şirkətə investisiya cəlbində maliyyə idarəetməsinin tələblərə uyğunluğunun artırılması yolları;
- mühasibat üzrə proqram təminatının seçim kriteriyaları;
- 4-cü sənaye inqilabı və onun uçota təsiri;
- KOS subyektləri üçün mühasibat uçotunun beynəlxalq standartlarının Azərbaycanda tətbiqi imkanları;
- mühasiblər üçün peşəkar qurumlara üzvlük proqramının faydaları və üstünlükləri.

Qeyd edilmişdir ki, əhəmiyyətli uçot təxminlərinin tətbiqi zamanı mühasiblər üçün istiqamətləndirici məlumat xarakterli təlimlər keçilməli, ictimaiyyətə açıq olan maarifləndirici materiallar təqdim edilməli, əhəmiyyətli uçot təxminlərinin hesablanması və tətbiqi prosesində vəzifə bölgüsü aparılmalı, İKT bacarığı yüksəldilməli, maliyyə vəsaitlərinin daha səmərəli istifadəsi üçün idarəetmə uçotu tətbiq olunmalıdır.

### QHT və bələdiyyələrdə mühasibat uçotu standartları təkmilləşdirilməlidir

«Kommersiya qurumlarında mühasibat uçotunun problemləri», «Maliyyə hesabatının beynəlxalq standartlarının tətbiqində təhsil və sertifikasiyanın rolu», «Mühasibat uçotu üzrə dövlət tənzimlənməsi: büdcə təşkilatları, bələdiyyə və QHT sektoru» mövzusunda keçirilən sessiyalarda çıxış edənlər uçotun düzgün qurulması, kommersiya qurumlarında hesabat planlarının təkmilləşdirilməsi, vergi, maliyyə və digər müvafiq hesabatların düzgün tərtibatı, hesabatlılığın və şəffaflığın təmin olunması ilə əlaqədar fikirlərini bildirmiş, təkliflərini irəli sürmüşlər.

Tədbirin sonunda «II Milli Mühasiblər Forumu»nun bəyanatı qəbul olunmuşdur. Bəyanatda bildirilir ki, respublikanın tanınmış mühasibat uçotu üzrə ekspertlərinin müxtəlif məsələlər ətrafında çıxışları, qızğın müzakirələri, təklifləri dövlət və özəl sektor dialoqunun qurulmasına, mütəxəssislərin geniş bilik əldə etməsinə, iştirakçıların yeni tərəfdaşlar qazanmasına, nümayəndələr arasında faydalı əməkdaşlığın dərinləşməsinə böyük töhfə verəcəkdir.

*Hazırladılar:*
**Elbrus CƏFƏRLİ**
**Fəxriyyə İKRAMQIZI**

# Üçüncü Bakı Şopinq Festivalı başlayıb

Dünəndən ölkəmizdə üçüncü Bakı Şopinq Festivalına start verilib və festival mayın 31-dək davam edəcək. Alıcılar festivala qatılan mağazalardan yüksək keyfiyyətli geyim, elektronika, məişət texnikası, mebel, ətriyyat və kosmetika, eləcə də digər məhsulları yalnız Bakı Şopinq Festivalı günlərində mövcud olan xüsusi kampaniya və endirimlərlə əldə edə biləcəklər.

Festival müddətində həm yerli, həm də xarici vətəndaşlar endirimlərdən faydalanmaqdan əlavə, «Tax free» nişanı olan mağazalardan etdikləri hər 100 AZN-dən çox alış-veriş zamanı əlavə dəyər vergisini geri ala biləcəklər.

Festival zamanı dəyərli hədiyyələrin oynanıldığı lotereya, həftəsonu əyləncəli oyunlar, moda nümayişləri və digər müxtəlif tədbirlərin təşkili də nəzərdə tutulur.

Xatırladaq ki, ƏDV-nin qaytarılması yalnız «Tax free» nişanı olan mağazalarda mümkündür.

Bakı şəhərində yerləşən istənilən mağaza, restoran və kafe Bakı Şopinq Festivalının iştirakçısı ola bilər.

Keçirildiyi ilk ildən Bakı Şopinq Festivalı böyük uğurlar əldə edərək beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməyə nail olub. Azərbaycanda və regionda ilk dəfə olmasına baxmayaraq, Şopinq Festivalı qısa zamanda etibar qazanıb və 2017-ci ildə iki festival uğurla başa çatıb. Festival çərçivəsində 71 min 331 ƏDV qaytarılması əməliyyatı həyata keçirilib. Yerli alıcılarla yanaşı, ƏDV qaytarılması imkanından yararlanan turistlərin sayı isə 6 min 534 nəfər olub.



## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Gəlirdən çıxılan xərclər

***İşçilərin və onların ailə üzvlərinin asudə vaxtlarını keçirməsi üçün müəssisənin balansında olan sosial obyektə görə hesablanan amortizasiya ayırmaları gəlirdən çıxılan xərclərə aid edilirmi?***

Vergi Məcəlləsinin (VM) 108-ci maddəsinə əsasən VM-in X fəslinə uyğun olaraq gəlirdən çıxılmayan xərclərdən başqa gəlirin əldə edilməsi ilə bağlı olan bütün xərclər, həmçinin qanunla nəzərdə tutulmuş icbari ödənişlər gəlirdən çıxılır.

Azərbaycan qanunvericiliyinə görə, əyləncə və yemək xərclərinin (müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş normalar daxilində müalicə-profilaktik yeməklərə, süd və ona bərabər tutulan digər məhsullara və vasitələrə sərf olunan xərclər, həmçinin dəniz nəqliyyatında üzücü heyətə verilən yemək xərcləri istisna olmaqla), habelə işçilərin mənzil və digər sosial xarakterli xərclərinin gəlirdən çıxılmasına yol verilmir (VM, maddə 109.3).

**Qeyd olunanlara əsasən:**

Müəssisənin balansında olan həmin əmlak gəlirin əldə edilməsində iştirak etmədiyinə görə həmin əmlaka görə hesablanmış amortizasiya ayırmaları gəlirdən çıxılmır.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- Aprelin 25-də 12 saylı Ərazi Vergilər Departamentinin əməkdaşları ilə Gəncə Dövlət Universitetində iqtisadiyyat və idarətmə fakültəsinin müəllim və tələbələrinin görüşü keçirilmişdir. Səmimi söhbət şəraitində keçən görüşün əsas mövzusu 2018-ci ilin dövlət büdcəsinin gəlirləri və xərcləri, vergi qanunvericiliyinə edilmiş dəyişiklikləri və vergilər sahəsində tətbiq olunan yenilikləri əhatə etmişdir. Müəllim və tələbələrin elektron audit, vergi ödəyicilərinin qeydiyyat məsələləri və xronometraj metodu ilə aparılan müşahidələr barədə sualları cavablandırılmışdır.

- Aprelin 25-də Qax rayon təhsil şöbəsinin nümayəndələri, «Vergi dostları» layihəsinin Qax rayonu üzrə şəbəkə üzvləri, eləcə də yerli sahibkarların iştirakı ilə vergi əməkdaşlarının görüşü keçirilmişdir. Görüş zamanı ölkədə aparılan vergi siyasətinə uyğun olaraq gənc nəslin, o cümlədən orta və ali təhsil müəssisələrinin şagird və tələbələrinin vergilər haqqında bilik və anlayışlarının artırılması və onlarda vergi mədəniyyətinin formalaşdırılması istiqamətində Vergilər və Təhsil nazirliklərinin səmərəli əməkdaşlığı qeyd edilmişdir. Qax rayon təhsil şöbəsinin metodisti Leyla Rzayeva keçirilən tədbirlərin şagirdlərin formalaşmasındakı rolundan, biliklərinin artırılmasındakı əhəmiyyətindən danışmışdır.
  Aprelin 26-da eyni məzmunlu görüş rayonun Ləkit kənd tam orta məktəbində də keçirilmişdir.

- Aprelin 25-də Qusar şəhərində yerləşən 6 saylı tam orta məktəbdə «Vergi dostları» şəbəkəsinin üzvləri ilə görüş keçirilmişdir. Görüşdə Vergi Məcəlləsinə edilən son əlavə və dəyişikliklər, e-qaimənin tətbiqi və yeni uçota alınmış vergi ödəyicilərinin qanunvericiliyin tələblərinə əməl etmə vəziyyəti, 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş «Vergilər uşaqların gözü ilə» rəsm və inşa müsabiqəsinin keçirilməsi qaydaları geniş müzakirə olunmuşdur. Tədbirin gedişində «vergi dostları»nın rastlaşdıqları praktiki məsələlərə toxunulmuş, tədbir iştirakçılarının sualları ətraflı cavablandırılmışdır.

- Aprelin 28-də Kürdəmir rayonunda fəaliyyət göstərən idarə, müəssisə, təşkilatların nümayəndələri və sahibkarlarla vergi əməkdaşlarının görüşü olmuşdur. Tədbirdə ölkədə sahibkarlığın inkişafının dəstəklənməsi, özəl sektorun fəaliyyətinin genişləndirilməsi, iqtisadiyyata investisiya qoyuluşlarının stimullaşdırılması çərçivəsində vergi sistemində geniş islahatlar aparıldığı qeyd edilmişdir. Azərbaycanda müəyyən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslərin sabit vergiyə cəlb olunması qaydaları açıqlanmış və bu addımın atılmasının daha çox uçotun sadələşdirilməsi və vergi yükünün minimuma endirilməsi məqsədi daşıdığı vurğulanmışdır. Vergi əməkdaşları qanunvericilikdə əksini tapmış yeni anlayışlar, yeni vergi bəyannamələri və hesabat formaları, vergi ödəyiciləri ilə partnyorluq münasibətlərinin dərinləşdirilməsi, şəffaf vergi xidmətlərinin göstərilməsi, uçot sisteminin şəffaflaşdırılması, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tələblərindən irəli gələn məsələlər, əmək müqaviləsinin bağlanması və s. barədə suallara ətraflı izah vermişlər.

# Vergi ödəyicilərinin tez-tez müraciət etdikləri ünvan - xidmət mərkəzləri

Vergilər Nazirliyi tərəfindən regionlarda, xüsusilə vergi orqanı olmayan iri şəhər və rayonlarda vergi ödəyicilərinə xidmət mərkəzlərinin açılmasında əsas məqsəd vergilərin könüllü ödənilməsi sisteminin gücləndirilməsi, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması, vergi ödəyicilərinə göstərilən xidmətlərin genişləndirilməsi və daha əlçatan olmasıdır.

Hazırda respublikada 57 xidmət mərkəzi fəaliyyət göstərir: bunların 6-sı Bakı şəhərində, 51-i isə digər şəhər və rayonlarda yerləşir. Regionlardakı 51 xidmət mərkəzindən 39-u vergi orqanı olmayan şəhər və rayonlarda fəaliyyət göstərir.

Biznes qurmaq istəyən sahibkarların vergi uçotuna alınması, vergi qanunvericiliyinin tətbiqi, vergi bəyannamələrinin tərtib edilməsi və göndərilməsi, vergi ödəyiciləri ilə vergi orqanı arasında elektron sənəd mübadiləsinin aparılması kimi xidmətlərin göstərilməsi, büdcəyə olan borcları öyrənmək və öz şəxsi vərəqələri baxmaq imkanın yaradılması xidmət mərkəzlərinin biznes mühitinin canlandırılmasındakı əhəmiyyətini artırır.

Bu ilin birinci rübündə respublikada fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərində 97.599 vergi ödəyicisi qəbul edilmiş, onlara 142.068 xidmət göstərilmişdir.

Müraciət edən şəxslərin məmnunluğunu və rahatlığını təmin etmək məqsədilə xidmət mərkəzlərinin əksəriyyəti növbə, qeydiyyat, videonəzarət, səsyazma və qiymətləndirmə (sorğu keçirmə) sistemləri ilə təchiz edilib və xidmət mərkəzinin girişində elektron növbə tutma terminalları quraşdırılıb . Xidmət mərkəzlərinə müraciət edən şəxslərə burada aidiyyəti üzrə zəruri kömək göstərilir, onlar bütün elektron xidmətlərdən istifadə edir, yazılı (kağız daşıyıcısında) olan müraciətləri təqdim edə və hazır sənədi təhvil götürə bilirlər.

Bundan əlavə, xidmət mərkəzlərində Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi adından vergi ödəyicilərinə «ASAN imza» üzrə sertifikat xidmətləri də göstərilir.

Qeyd edək ki, xidmət mərkəzlərinin yerləşdiyi şəhər və rayonlar, onların ünvanları, əlaqə nömrələri, hətta hansı avtobuslarla mərkəzlərə gəlmək imkanı haqqında məlumatlar Vergilər Nazirliyinin rəsmi internet saytından (http://www.taxes.gov.az/modul.php?name=terminal&cat=3) əldə etmək mümkündür.

Vergi ödəyicisi Mübariz İbrahimov qeyd edir ki, regionlardaki xidmət mərkəzlərinin fəaliyyətindən yararlanan sahibkarlar vergi ödənişləri ilə bağlı hər hansı promlemlə qarşılaşmırlar: «Çünki bəyannamələrin doldurulması, vergi ödənişi prosedurları zamanı yarana biləcək texniki problemlər dərhal aradan qaldırılır və ödəyicilər qısa zaman ərzində vergi ilə bağlı işlərini həll etmiş olurlar. Xidmət mərkəzində elektron xidmətlərin göstərilməsi üçün lazım olan hər cür şərait yaradılıb. Vergi məsələləri ilə bağlı ərazi vergilər idarəsinə, departamentlərə getməyə ehtiyac qalmır. Mərkəzdə bəyannamə və digər hesabat sənədlərini tərtib edə və lazımi izahatlar ala bilirik. Hər bir vergi ödəyicisinə də bu mərkəzlərin xidmətlərindən yararlanmağı tövsiyə edirəm».

Vergi ödəyicisi Həbib Yusifovun sözlərinə görə, o, xidmət mərkəzlərinin köməyi ilə işlərini operativ şəkildə həll edə bilir, lazım olan məlumatları vaxtında əldə edir: «Vergi orqanlarına, əsasən, vergi qanunvericiliyi və elektron xidmətlərlə bağlı müraciət edirəm. Mərkəzdə işlərimi daha asanlıqla həll edə bilirəm».

Vergi ödəyicisi Xanlar Qasımov vergi ödəyicilərinə xidmət mərkəzlərinin regionlarda sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini deyir: «Mərkəzdə sahibkarlıq fəaliyyətinə yeni başlayan şəxslərə zəruri dəstək göstərilir. Bu, iş görmək istəyən adamları sevindirir, onların bniznes fəaliyyətinin irəli getməsinə şərait yaradır».

**Rəşad SADIQOV**

# İxrac potensialı gücləndikcə ixrac sifarişləri də artır

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin «İxrac İcmalı»nın 2018-ci ilin aprel sayı ictimayyətə təqdim olunub. İcmal 2018-ci ilin birinci rübünün yekunlarına həsr olunub.

İlin ilk üç ayı ərzində qeyri-neft sektoru üzrə ixrac 356,4 milyon ABŞ dolları təşkil edib. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-mart aylarında qeyri-neft sektoru üzrə ixrac 35 faiz artıb. Cari ilin yanvar-mart ayları ərzində Rusiyaya 98,7 milyon, Türkiyəyə 97,6 milyon, İsveçrəyə 33,8 milyon, Gürcüstana 31,8 milyon və Çinə 11,9 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2018-ci ilin ilk rübü ərzində ixrac olunan qeyri-neft sektoru məhsulları arasında elektrik enerjisi (33,9 milyon ABŞ dolları) birinci, qızıl (30,9 milyon ABŞ dolları) ikinci, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen (26,3 milyon ABŞ dolları) üçüncü olub.

Ümumiyyətlə, rüb ərzində meyvə-tərəvəz ixracı 80,7 milyon, elektrik enerjisinin ixracı 33,9 milyon, plastmas və onlardan hazırlanan məmulatların ixracı 32,2 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 30,9 milyon, qara metallar və ondan hazırlanan məmulatların ixracı 15,8 milyon, kimya sənayesi məhsullarının ixracı 12,4 milyon ABŞ dolları dəyərində olub.

2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin ilk rübündə elektrik enerjisinin ixracı 8,6 dəfə, meyvə-tərəvəzin ixracı 45,7 faiz, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 34,8 faiz, kimya sənayesi məhsullarının ixracı 29,5 faiz, pambıq ipliyi ixracı 24,8 faiz, çayın ixracı 12,9 faiz, alüminium və ondan hazırlanan məmulatların ixracı 4 faiz artıb.

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, cari ilin mart ayında qeyri-neft sektoru üzrə ixrac 115 milyon ABŞ dolları təşkil edib. 2018-ci ilin mart ayında qeyri-neft sektoruna aid mal ən çox Türkiyəyə ixrac edilib (42,3 milyon ABŞ dolları). 2018-ci ilin mart ayında qeyri-neft sektoru üzrə ixracda ən üst sırada elektrik enerjisi olub (13,6 milyon ABŞ dolları). Bu siyahıda ikinci yeri tomat (9,3 milyon ABŞ dolları), üçüncü yeri isə qabığı təmizlənmiş meşə fındığı (8,3 milyon ABŞ dolları) tutub.

«İxrac icmalı»nın mart sayında qeyri-neft sektoru üzrə əsas ixracatçı şirkətlərin reytinqi verilib. 2018-ci ilin birinci rübündə qeyri-neft sektoru üzrə qeyri-dövlət ixracatçı şirkətlərin siyahısında ilk onluqda «Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti»nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, «MKT İstehsalat Kommersiya» MMC, «Aqrodoctor» MMC, «Baku Steel Company» MMC, «Metalçılar-2» MMC, «Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD» MMC, «CTS-Agro» MMC, «Sun Food» MMC, «Qlaf Drillinq Saplay FZE» şirkətinin Azərbaycan Respublikasındakı Filialı və «Azərbaycan Şəkər İstehsalat Birliyi» MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-in «Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi» başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: «Azərenerji» ATSC, «Det-al Alüminium» MMC, «Azergold» QSC, «Azərbaycan Hava Yolları» QSC, «SOCAR Methanol» MMC, «Ərzaq Məhsullarının Tədarükü və Təchizatı» ASC, «Qaz ixrac idarəsi», «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC və «Suraxanı Maşınqayırma Zavodu Törəmə» ASC.

«İxrac icmalı»nın xidmətlrə aid hissəsində göstərilib ki, 2018-ci ilin birinci rübündə «Azərkosmos» ASC tərəfindən dünyanın 18 ölkəsinə peyk və telekommunikasiya xidmətləri ixrac edilib. Cari ilin ilk 3 ayında «Azərkosmos» ASC peyk və telekommunikasiya xidmətlərinin ixracından 3,4 milyon ABŞ dolları məbləğində gəlir əldə edib. «Azərkosmos» ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 86 faizini təşkil edib.

«Azərkosmos» ASC-nin 2018-ci ilin ilk rübündə xidmət ixracı həyata keçirdiyi əsas ölkələr Fransa, BƏƏ, Almaniya, Gürcüstan, Çin, Misir, Qırğızıstan, Kipr, CAR, Birləşmiş Krallıq, Ukrayna və digərləridir.

«İxrac icmalı»na əsasən, 2018-ci ilin yanvar-mart ayları ərzində Azərbaycana dünyanın 151 ölkəsindən 629,4 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. 2018-ci ilin mart ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların 105,8 milyon manat təşkil edib və ötən ilin mart ayı ilə müqayisədə 16 faiz artıb.

Ümumiyyətlə, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-mart ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri 18 faiz artaraq 296,7 milyon manat təşkil edib.

«İxrac icmalı»nda 2018-ci ilin yanvar-mart ayı ərzində Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə də məlumat verilib. Göstərilib ki, 2018-ci ilin ilk üç ayında 185,6 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olub. Cari ilin mart ayı ərzində Azexport.az portalına 66,5 milyon ABŞ dolları məbləğində ixrac sifarişləri daxil olub. Ümumilikdə isə 2017-ci ilin yanvar ayından 2018-ci ilin 31 mart tarixinə kimi Azexport.az portalına dünyanın 90 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 660,6 milyon ABŞ dolları təşkil edib.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olub ki, cari ilin mart ayında ən çox ixrac sifarişi şərab, yumurta, nar şirəsi, alma, fındıq ləpəsi, qənnadı məhsulları, pomidor, buğda kəpəyi, makaron, çay, zəfəran, pambıq yağı, tibbi tənzif, dekorativ güllər, konservləşdirilmiş ət, mühərrik yağı, tikinti materialları və s. mallara daxil olub.

«İxrac İcmalı»nın aprel sayında Azərbaycanda ilk dəfə Sərbəst Satış Sertifikatının verilməsinə başlanılması, «Bir Pəncərə» İxraca Dəstək Mərkəzinin sahibkarlara göstərdiyi xidmətlər, bal ixracı ilə bağlı aparılan araşdırma, və s. məsələlər barədə də məlumatlar verilib.




# Mülki Məcəlləyə dəyişikliklər kiçik investorların xeyrinədir

Azərbaycanda son dövrdə aparılan iqtisadi islahatlarla kiçik investorların maraqlarının qorunması daimi diqqət mərkəzində saxlanılır, ən qabaqcıl beynəlxalq təcrübəyə uyğun müvafiq təkmilləşmələr aparılır.

Prezident İlham Əliyevin aprelin 23-də imzaladığı Fərmanla yerli və xarici investorlar üçün Azərbaycan iqtisadiyyatının cəlbediciliyini daha da artırmaq üçün Mülki Məcəlləyə dəyişikliklər təsdiq edilib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin departament rəhbəri Ayaz Çaparlı bildirmişdir ki, bu dəyişikliyə əsasən, həyata keçirilən əməliyyatlar nəticəsində alıcıya vurulan zərərə görə, direktorlar məsuliyyətə cəlb edilə bilərlər. İcraçı direktor isə səhmdarların təmin olunan iddialarına görə cərimələnə, həbs edilə və ya vəzifəsindən kənarlaşdırıla bilər. Bundan əlavə, səhmdarın müvəffəqiyyətli iddiası nəticəsində məhkəmə əməliyyatı (əqdi) ləğv oluna bilər.

Səhmdar cəmiyyətinin iştirakçısı öz payını satdığı halda öncə mövcud iştirakçılara təklif etməlidir. Həmçinin səhmdar cəmiyyətinin 50 faiz iştirak payını alan potensial alıcı tərəfindən digər səhmdarlara tender elan edilməlidir. Məhdud məsuliyyətli cəmiyyətin aktivlərinin 51 faizinin satıldığı zaman isə cəmiyyətin iştirakçılarının razılığı tələb edilir. Bundan əlavə, iştirak payının 5 faizini təşkil edən səhmdar cəmiyyətinin iştirakçıları gündəliyə yeni müzakirə mövzularını əlavə edə bilərlər. Cəmiyyətin direktorlar şurası yalnız direktorlar şurasının üzvlərindən ibarət audit komitəsini ehtiva etməlidirlər.

Qanunvericiliyə edilmiş dəyişikliklər Azərbaycanda cəlbedici biznes və investisiya mühitinin əlverişliliyinin daha da artırılması və beynəlxalq reytinqlərdə, o cümlədən «Doing Business 2019» hesabatında ölkəmizin mövqeyinin gücləndirilməsi üçün münbit şərait yaradacaq.

**Fəxriyyə İKRAMQIZI**

# Elektron qaimə-faktura müasir dövrün tələbidir

**Əlavə dəyər vergisinin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqdim edilmiş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il aprelin 1-dən, digər vergi ödəyicilərinə münasibətdə isə 2018-ci il yanvarın 1-dən elektron qaimə-faktura tətbiq edilir.**




Nazirlər Kabinetinin təsdiqlədiyi «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları»na əsasən, Azərbaycanda elektron qaimə-fakturanın təsdiq edilmiş forma və rekvizitlərə uyğun mərkəzləşdirilmiş qaydada uçotunun aparılmasını və tətbiqini Vergilər Nazirliyi həyata keçirir. Bununla əlaqədar Vergilər Nazirliyinə elektron qaimə-fakturanın tətbiqi ilə əlaqədar müvafiq texniki imkanların yaradılmasını təmin edən tədbirlərin görülməsi tapşırılmışdı. Elektron qaimə-fakturanın tətbiqi ilə bağlı vergi ödəyiciləri ötən dövrlərdə kifayət qədər məlumatlandırılıb, sual doğuran məsələlər onlara izah olunub. Ancaq bəzi məqamlar da var ki, onların izahı üçün daha çox vaxta ehtiyac olur. Məsələn, sahibkarların tez-tez soruşduqları məsələlərdən biri elektron qaimə-fakturanın təyinatı ilə bağlıdır.

Sahibkarlıq subyektləri arasında əməliyyatların rəsmiləşdirilməsi zamanı qaimə-fakturaların kağız formasından istifadə olunması əksər hallarda vergidən yayınma hallarına şərait yaratmaqla yanaşı, inzibatçılıq xərclərinin artmasına, əlavə vaxt sərfiyyatına səbəb olurdu. Bu baxımdan, e-qaimə-faktura inzibatçılıq xərclərinin aşağı salınmasında, məlumat mübadiləsinin çevikliyinin artırılmasında və aparılan əməliyyatlarda şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Bu sistem təkcə vergi sahəsi ilə məhdudlaşmır. Hazırda maliyyə, bank sferasının elektron mühasibat sistemləri yeni əsaslar üzərində qurulur, ödəniş sistemlərində dəyişikliklər baş verir, digər sahələrdə hesablaşmaların strukturu təkmilləşdirilir. Bütün bunlar hüquqi çərçivədə də dəyişiklikləri və e-qaimənin tətbiqini labüd edir. Bu əməliyyatların şəffaflaşdırılması, rəsmiləşmə prosedurunun sadələşdirilməsi, operativliyin təmin edilməsi, inzibatçılıq xərclərinin azaldılması və sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaları məqsədilə Vergi Məcəlləsi təkmilləşdirilib. Məcəlləyə «Elektron qaimə-fakturalar» adlı 71-1-ci maddə və 16.1.11-6-cı və 16.1.11-7-ci maddələr əlavə olunub.

Digər tərəfdən, gəlir və xərclərin, həmçinin vergitutma obyektlərinin uçotunun aparılmaması vergidən yayınmaya gətirib çıxarır. Ümumiyyətlə, Azərbaycan qanunvericiliyinə görə malların sənədsiz satılması qanunaziddir.

Digər bir üstünlük qaimə-fakturaların mətbəələrdə sifariş edilməsi və hazırlanması ilə əlaqədar xərclərin və vaxt itkisinin azaldılmasıdır. Elektron qaimənin tətbiqi nəticəsində heç bir mətbəəyə müraciət etmədən, vaxt itkisinə yol vermədən, birbaşa internet vasitəsilə real vaxt rejimində elektron qaimə-fakturanı hazırlayıb malın (işin, xidmətin) alıcısına təqdim etmək olur. Bunlar isə vergi ödəyicisinin əməliyyatlarının şəffaflaşmasına şərait yaradır və vergi orqanı tərəfindən bu əməliyyatların real vaxt rejimində görmək imkanı olduğundan, həmin vergi ödəyicilərində nəzarət tədbirlərinin azalmasına gətirib çıxarır.

## E-qaimənin tətbiqindən yayınan sahibkarlar üçün qanunvericilikdə cərimə və sanksiyalar müəyyənləşdirilmişdir

Onu da qeyd edək ki, e-qaimənin tətbiqindən yayınan sahibkarlar üçün qanunvericilikdə cərimə və sanksiyalar müəyyənləşdirilmişdir. Səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası, idxal mallarına münasibətdə idxal gömrük bəyannaməsindən ən azı biri olmadıqda alıcı təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası ilə cəzalandırılır.

**Rəşad SADIQOV**

# Offşorlarda vergidən yayınma ilə mübarizə

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən Türkiyənin paytaxtı Ankara şəhərində «Məlumat mübadiləsi offşorlarda vergidən yayınma ilə mübarizə aləti kimi» mövzusunda seminar keçirilmişdir. Əsas məqsədi əldə edilmiş bilikləri və təcrübəni paylaşmaq olan tədbirdə Azərbaycan Vergilər Nazirliyini Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Maliyyə institutlarında vergi monitorinqi idarəsinin Məlumat mübadiləsi və inzibati yardım şöbəsinin baş hüquqşünası Arzu Xəlilova təmsil etmişdir. Seminar iştirakçıları qarşısında o, «Azərbaycanda vergi məlumatlarının mübadiləsi» mövzusunda təqdimatla çıxış etmişdir.

# Qeyri-neft ixracının artımı iqtisadi inkişafa təkan verir

**Bu ilin fevral ayında ictimaiyyətə təqdim edilmiş onlayn vahid ixrac ərizəsi artıq ölkənin iqtisadi həyatında öz real bəhrəsini verməkdədir.**

Rəqəmsal Ticarət Qovşağının meneceri Nicat Əsədlinin sözlərinə görə, onlayn vahid ixrac ərizəsi dünyada ilk dəfə Azərbaycanda yaradılmışdır və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi bu yeni xidməti Rəqəmsal Ticarət Qovşağı və «Azexport» portalı vasitəsilə həyata keçirir: «Sahibkarlar vahid ixrac ərizəsini onlayn qaydada doldurmaqla məhsullarını daha asan ixrac edə bilirlər. Bu innovativ resurs sahibkarların ixrac etdikləri məhsullar üçün tələb olunan bütün sənədlərin vahid pəncərə prinsipi əsasında onlayn qaydada əldə olunmasını təmin edir. Vahid ixrac ərizəsi ixrac prosesi çərçivəsində sərf olunan müddətin qısaldılmasına və çəkilən xərclərin minimuma endirilməsinə şərait yaradır».

Rəqəmsal Ticarət Qovşağının bir hissəsi olan onlayn vahid ixrac ərizəsinin istifadəyə verilməsi sahibkarların iş yükünü və məmur-sahibkar təmasını minimuma endirmək məqsədi daşıyır. Bu xidmət respublikanın bölgələrində yerləşən sahibkarlar üçün icazələrin alınması prosedurunu daha da asanlaşdıracaq.

Yeni elektron xidmət ixrac üçün tələb olunan bütün icazə sənədlərinin (baytarlıq, fitosanitar, mənşə, keyfiyyət və s.) əldə edilməsi, o cümlədən elektron gömrük bəyannaməsinin doldurulması və ixrac təşviqi məbləğinin alınmasını özündə birləşdirir. Ərizənin doldurulması sistemi intellektual məntiqə əsaslanaraq qurulub. Yəni istifadəçi özü haqqında minimal məlumatları (məsələn: malın adı və ixrac ölkəsi) bir dəfə daxil etməklə digər zəruri məlumatlar, o cümlədən idxal ölkəsi üçün tələb olunan sənədlər sistem tərəfindən avtomatik müəyyən edilir və ərizəçiyə təqdim olunur. Sonrakı mərhələdə ərizəçinin razılığı əsasında elektron vahid ixrac ərizəsi formalaşır və tələb olunan icazələrin alınması üçün sistem tərəfindən müəyyən edilmiş iştirakçılara (dövlət qurumlarına) ünvanlanır.

Sistemin işə salınması bölgələrdə fəaliyyət göstərən sahibkarlar üçün icazələrin alınması prosedurunu asanlaşdırmaqla yanaşı, müxtəlif sertifikatların alınması zamanı xərclərin minimuma endirilməsini təmin edir ki, bu da yerli bazarlara üstünlük verən sahibkarların xarici bazarlara ixraca marağını artırır. Ümumilikdə isə ixrac proseslərinin sadələşdirilməsi ölkəmizin ixrac potensialının tam reallaşdırılmasına və nəticədə ticarət balansında müsbət saldonun daha da artırılmasına şərait yaradır.

«Azexport.az» portalının məlumatına görə, onlayn vahid ixrac ərizəsi istifadəyə veriləndən bəri sahibkarlar tərəfindən yüzlərlə müraciət qəbul olunub və təsdiq edilib. Müraciətlər arasında ən çox tələbat İqtisadiyyat Nazirliyinin verdiyi mənşə sertifikatı olub.

> Rəqəmsal Ticarət Qovşağının bir hissəsi olan onlayn vahid ixrac ərizəsinin istifadəyə verilməsi sahibkarların iş yükünü və məmur-sahibkar təmasını minimuma endirmək məqsədi daşıyır

**F.İKRAMQIZI**


## ELAN

Ötən ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin «195-1» Çağrı Mərkəzinə**, ww.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ


## BİR CÜMLƏ - BİR XƏBƏR

Vətəndaş əlçatanlığının təmin edilməsi məqsədilə bütün ödəniş portallarının və ödəniş terminallarının, eləcə də elektron bankçılıq xidmətlərinin «ASAN Ödəniş» sisteminə inteqrasiya imkanları yaradılıb.

Bu il nağdsız ödəmələrin genişləndirilməsini hədəfləyən 3 layihə - «Nağdsız Azərbaycan», «Ani ödənişlər» və «3D bank sektorunda blokçeyn texnologiyalarına keçid» proqramları reallaşdırılacaq.

Cari ilin birinci rübündə Qazaxıstan Azərbaycanın ən iri 15 ixracatçısı sırasına daxil olub.

Qazaxıstanın Aktau şəhərindəki baş konsulluğumuzun təşkilatçılığı ilə «Qrand Victoriya» otelində ölkəmizin turizm potensialına həsr olunmuş «Azərbaycanı özün üçün kəşf et» mövzusunda tədbir keçirilib.

Azərbaycan Moskvada keçirilən «HALFOOD 2018» Halal Məhsullar Sərgisində təmsil olunub.

Nazirlər Kabineti «Tikinti obyektlərinin enerji təchizatı şəbəkəsinə qoşulmasına görə qoşulma haqqı məbləği»ni təsdiqləyib.

Azərbaycan ilə İran Xəzər dənizində kəşfiyyat və hasilat işlərini həyata keçirəcək birgə neft şirkəti yaradacaqlar

Azərbaycanda daşınmaz əmlak çıxarışlarının verilmə müddəti azaldılıb.

## Azərbaycan Respublikasının Vergilər Nazirliyi işə qəbulla bağlı müsabiqə ELAN EDİR

Dövlət vergi orqanlarına xidmətə qəbul «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin, «Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə»nin və Vergilər Nazirliyinin 24 iyun 2014-cü il tarixli 1417040100819300 nömrəli əmri ilə təsdiq edilmiş «Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar sənədlərin toplanması, yoxlanılması, müsabiqənin keçirilməsi, ehtiyat kadrların formalaşdırılması və idarə edilməsi Qaydaları»nın tələblərinə müvafiq olaraq aparılır.

Müsabiqədə iştiraka bir qayda olaraq aşağıdakı ixtisaslar üzrə ali təhsilə malik (xarici ölkədə təhsil almış namizədlərin diplomları müvafiq qaydada nostrifikasiya olunmalıdır), yaşı 35-i keçməmiş (müvafiq ixtisas üzrə elmi dərəcəsi olan şəxslər, ali təhsili fərqlənmə diplomu ilə bitirmiş şəxslər, yüksək peşə hazırlığına və ya iş təcrübəsinə malik şəxslərə yaş həddi tətbiq edilmir) vətəndaşlar buraxılırlar:

1. Hüquqşünaslıq;
2. Beynəlxalq hüquq;
3. Dünya iqtisadiyyatı;
4. Maliyyə;
5. İqtisadiyyat;
6. Statistika;
7. Beynəlxalq iqtisadi münasibətlər;
8. Mühasibat uçotu və audit;
9. Maliyyə və kredit;
10. İqtisadiyyatın tənzimlənməsi;
11. Qiymət və qiymətin əmələ gəlməsi;
12. Xəzinə əməliyyatlarının uçotu;
13. İqtisadi nəzəriyyə;
14. Vergilər və vergitutma;
15. İqtisadi siyasət;
16. Dünya iqtisadiyyatında informasiya texnologiyaları;
17. Milli hesablar sistemi;
18. Qiymətləndirmə (sahələr üzrə);
19. Qiymətli kağızlar;
20. Gömrük işinin təşkili;
21. Gömrük ekspertizası (sahələr üzrə);
22. İqtisadiyyatın hüquqi tənzimlənməsi;
23. Vergi işinin təşkili və idarə edilməsi;
24. Tətbiqi riyaziyyat;
25. Avtomatlaşdırılmış layihələndirmə sistemləri (sahələr üzrə);
26. İnformasiya işlənməsinin və idarəetmənin avtomatlaşdırılmış sistemləri (sahələr üzrə);
27. Avtomatlaşdırılmış sistemlərin və hesablama texnikasının proqram təminatı;
28. Məlumatların mühafizəsinin texnologiyası və təşkili;
29. Avtomatlaşdırma və informasiya texnikası.

«Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə»nin 9-cu maddəsinə əsasən vətəndaş aşağıdakı hallarda vergi orqanlarında xidmətə qəbul oluna bilməz:

- məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə;
- üzərindən məhkumluğu götürülmədikdə və ya ödənilmədikdə.

Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə xidmətə qəbul edilmirlər.

Müsabiqəyə əlavə sənəd qəbulu elektron ərizə vasitəsilə **26.04.2018-ci il saat 10:00-dan 09.05.2018-ci il saat 24:00-dək** həyata keçirilir. Müsabiqədə iştirak etmək istəyən vətəndaşlar göstərilən müddət ərzində Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az və www.e-taxes.gov.az) daxil olaraq elektron ərizə formasını doldurmalıdırlar. Ərizə formasına sağlamlıq haqqında tibbi arayışın, ali təhsil haqqında diplomun, məhkumluğun olması (olmaması) barədə arayışın və narkoloji dispanserdə qeydiyyatda olması (olmaması) barədə arayışın surətləri mütləq qaydada fayl şəklində əlavə olunmalıdır. Ərizə formasını doldurub sistemə daxil etdikdən sonra namizədə ərizənin sistemə daxil olunduğu barədə elektron poçt ünvanına məlumat verilir. Namizədin ərizəsi qəbul edildikdən 5 gün ərzində baxılır, ərizə qəbul edilərsə namizədin iş nömrəsi və test imtahanının vaxtı və yeri barədə, ərizə qəbul edilmədiyi halda isə səbəbi barədə elektron poçt ünvanına məlumat verilir. Ərizə göndərilən müddətdən 5 gün ərzində elektron poçt ünvanına heç bir məlumat göndərilməyən vətəndaşlar elanda qeyd olunmuş telefon nömrəsi ilə əlaqə saxlamalıdırlar.

**Qeyd: Dövlət vergi orqanlarına işə qəbulla əlaqədar 05-30 dekabr 2017-ci il tarixlərdə qeydiyyatdan keçmiş və elektron ərizələri qəbul edilmiş vətəndaşların müsabiqədə iştirak hüququ saxlanılır.**

Namizədlər internet vasitəsi ilə elektron ərizə formasını doldura bilmədikdə və ya bu zaman hər hansı texniki problem yarandıqda **012-403-81-35** nömrəli telefonla Vergilər Nazirliyinə, Bakı şəhərində və regionlarda fəaliyyət göstərən vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

Elektron ərizə vermiş namizədlər **23-25.05.2018-ci il tarixdə** (saat 10:00-dan 18:00-a dək) imtahana buraxılış vərəqələrini Vergilər Nazirliyinin inzibati binasından (Bakı şəhəri, Yasamal rayonu, ak. Landau küçəsi 16) götürməlidirlər. Müsabiqənin test imtahanı mərhələsi 26.05.2018-ci il tarixdə Dövlət İmtahan Mərkəzinin müəyyən etdiyi yerdə və vaxtda keçiriləcəkdir.

Müsabiqənin test imtahanı mərhələsinin suallarını özündə əks etdirən yenilənmiş ədəbiyyat siyahısı Vergilər Nazirliyinin rəsmi internet saytının (www.taxes.gov.az) «İşə qəbul. Müsabiqələr» bölməsində yerləşdiriləcəkdir.

Son 1 il ərzində ingilis dilini bilmə səviyyəsi TOEFL (IBT) 100 və 100-dən yuxarı və ya IELTS üzrə 7 və 7-dən yuxarı olan namizədlərə üstünlük verilir. Namizəd ingilis dili səviyyəsini təsdiq edən müvafiq sənəd barədə məlumatları (sənədin adını, nömrəsini, qısa məzmununu və ingilis dili səviyyəsini) elektron ərizə formasının «Əlavə qeydlər» hissəsində göstərməlidir.

**Müsabiqədə müvəffəqiyyət qazanmış, lakin vakant vəzifələr üzrə iş təklifindən imtina edən namizədlər Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaqdır**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Güzəştli dövlət kreditləri

## *Bundan kimlər hansı sahələrin inkişafı üçün istifadə edə bilər*

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondundan verilən məlumata görə, fondun fəaliyyəti dövründə ümumi dəyəri 4,7 milyard manat olan investisiya layihələrinin maliyyələşdirilməsi məqsədilə 34963 sahibkara 2,1 milyard manatdan artıq güzəştli kredit verilib, bu kreditlər hesabına 160 minədək yeni iş yeri açılıb. Güzəştli kreditlərin 71 faizi aqrar sektorun, 29 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Verilmiş kreditlərin 75 faizi regionların, 25 faizi isə Bakı qəsəbələrinin payına düşür. Maliyyələşdirilmiş layihələrin 93 faizini kiçik və orta həcmli kreditlər təşkil edir. İndiyədək verilmiş 2,1 milyard manat güzəştli kreditin 1 milyard manatı büdcə (47 faiz), 1,1 milyard manatı isə geri qaytarılan vəsaitlərin (53 faiz) payına düşür.

Qeyd edək ki, Sahibkarlığa Kömək Milli Fondu 2017-ci ildən etibarən sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsini indiyədək verilmiş kreditlər üzrə geri qaytarılan vəsaitlər hesabına həyata keçirir.

Əhalinin həssas qruplarının, o cümlədən məcburi köçkün və qaçqınların, eləcə də qadın və gənc sahibkarların güzəştli kreditlərdən maksimum bəhrələnməklə biznes yaratmaları daim diqqət mərkəzində saxlanılır. İndiyədək 2076 məcburi köçkün sahibkara 47,3 milyon manat, 4101 qadın sahibkara 95,4 milyon manat və 5639 gənc sahibkara 435,3 milyon manat güzəştli kredit verilib. Aqrar sektorun innovativ meyarlara uyğun qurulması, o cümlədən aqroparkların yaradılması əsas hədəflərdəndir. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq respublikanın 30 rayonu üzrə 191,8 min hektar ərazidə 45 aqroparkın yaradılması prosesi sürətlə davam etdirilir.

Ailə biznesinin formalaşdırılması, əhalinin məşğulluq səviyyəsinin artırılması məqsədilə «ABAD»çılara dövlətin güzəştli kreditlərinin verilməsi ilə bağlı İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu, «ABAD» publik hüquqi şəxs və «Azər-Türk Bank» ASC arasında birgə əməkdaşlığa dair niyyət protokolu imzalanıb, ilkin olaraq 12 «ABAD»çıya illik 4 faizlə 150 min manat güzəştli kredit verilib.

Sahibkarlığa Kömək Milli Fondu sahibkarların maarifləndirilməsi, biznes ideyasının formalaşdırılması və reallaşdırılması, yeni bazara çıxış imkanlarının artırılması və digər sahələrdə dəstək göstərilməsi məqsədilə respublikanın şəhər və rayonlarında, o cümlədən kənd yerlərində işgüzar forumlar və digər tədbirlər təşkil edir. Fond tərəfindən indiyədək 50 minədək sahibkarın iştirak etdiyi 368 belə tədbir keçirilib.

Bununla belə, bəzi sahibkarlar güzəştli kreditlərin əldə edilməsi mexanizmlərindən məlumatsız, hansı sahələrin inkişafı üçün belə kreditlərin verilməsindən xəbərsiz olduqlarını bildirirlər.

Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına güzəştli kredit almaq üçün sahibkarlıq subyektləri ilkin olaraq müvəkkil kredit təşkilatlarına müraciət edirlər. Müvəkkil kredit təşkilatları müraciətləri qeydiyyata alır və sahibkara müraciətin qeydiyyata alınmasını təsdiq edən müvafiq sənəd təqdim edir. Müvəkkil kredit təşkilatları onlar üçün müəyyən edilən limit çərçivəsində 10 (on) bank günündən gec olmayaraq öz biznes maraqları və Fondun müəyyən etdiyi investisiya layihələrinin tərtib olunmasına dair minimal tələblər və qiymətləndirmə meyarlarına əsaslanaraq investisiya layihələrini təhlil edir və müsbət qiymətləndirdiyi layihələrə dair Fondun müəyyən etdiyi məlumatları və sənədləri Fonda təqdim edir. Fond investisiya layihəsinin tam və hərtərəfli ekspertizası üçün əlavə məlumatlar və sənədlər tələb edə bilər. İnvestisiya layihəsi mənfi qiymətləndirilən sahibkarlıq subyektlərinə isə müvəkkil kredit təşkilatları tərəfindən üç bank günü müddətində əsaslandırılmış imtina məktubu verilir.

Fond on bank günü müddətində Fondun vəsaitləri hesabına maliyyələşdirilmək üçün təqdim olunan layihələri ekspertizadan keçirir və kiçik həcmli kreditlər istisna olmaqla müvəkkil kredit təşkilatlarının təqdim etdiyi investisiya layihələrinin bilavasitə yerində ilkin monitorinqini həyata keçirir. Ekspertizanın nəticəsindən asılı olaraq Fond müraciətlərin təmin olunması və ya onlardan imtina edilməsi barədə müvəkkil kredit təşkilatlarına rəsmi məlumat verir.

Sahibkarlıq subyektləri ilə kredit müqaviləsi bağlandıqdan sonra müvəkkil kredit təşkilatları tərəfindən kredit vəsaitinin ayrılması barədə Fonda sifariş göndərilir. Fond üç bank günü ərzində vəsaitlərin müvəkkil kredit təşkilatlarına ayrılmasını təmin edir. Ayrılan vəsait müvəkkil kredit təşkilatının müxbir hesabına daxil olduqdan sonra kredit təşkilatı iki bank günü ərzində vəsaiti sahibkarlıq subyektinin hesabına köçürür və bu barədə Fonda və sahibkarlıq subyektinə məlumat verir.

**Sahibkarlıq subyektlərinə Fondun vəsaitlərindən aşağıdakı hədlərdə güzəştli kredit vəsaiti verilə bilər:**

- 5 000 manatdan 50 000 manatadək - kiçik həcmli kreditlər;
- 50 001 manatdan 500 000 manatadək - orta həcmli kreditlər;
- 500 001 manatdan 10 000 000 manatadək - böyük həcmli kreditlər.

Hər bir sahibkarlıq subyektinin Fondun vəsaitləri hesabına aldığı güzəştli kreditin (o cümlədən bir investisiya layihəsi üzrə) maksimum həddi 10.000.000 manatdan artıq ola bilməz.

**Fondun güzəştli kreditlərinin müddətləri aşağıdakı kimi müəyyən edilir:**

- Kiçik həcmli kreditlər üçün - üç ilədək;
- Orta həcmli kreditlər üçün - beş ilədək;
- Böyük həcmli kreditlər üçün - on ilədək.

***Fondun kreditlərinin illik faiz dərəcələri aşağıdakı kimi müəyyən edilir:***

- Kütləvi informasiya vasitələrinin inkişafı layihələrinin maliyyələşdirilməsi üçün - 0,5 faiz;
- Digər layihələrin maliyyələşdirilməsi üçün - 1 faiz.

Müvəkkil kredit təşkilatlarının Fondun kreditlərinə tətbiq etdiyi illik faiz dərəcəsinin ən yüksək həddi cəmi kredit məbləğinin 6 faizindən artıq olmamalıdır.

**Güzəştli kreditlərdən istifadə istiqamətləri**

- startap layihələrin dəstəklənməsi;
- aqroparkların yaradılması;
- ətlik və südlük istiqamətli cins iri buynuzlu heyvandarlıq komplekslərinin yaradılması;
- logistik (qida və qeyri-qida məhsullarının saxlanması, daşınması və satışı ) və yaşıl market (fermer mağazalarının) mərkəzlərinin yaradılması;
- müasir tələblərə cavab verən meyvə-tərəvəz məhsullarının emalı müəssisələrinin (o cümlədən kiçik və orta ölçülü) yaradılması;
- ət kəsimi, ət və süd emalı müəssisələrinin (o cümlədən kiçik və orta ölçülü) yaradılması;
- quşçuluğun inkişafı (quşçuluqda dərin emal sahələrinin yaradılması);
- qarışıq yem istehsalı müəssisələrinin yaradılması;
- müasir istixana komplekslərinin yaradılması;
- intensiv bağçılıq (üzüm, alma, nar, zeytun, badam və. s) və tingçilik təsərrüfatlarının yaradılması;
- texniki bitkiçilik, qərzəkli meyvə istehsalı və emalı müəssisələrinin yaradılması;
- müasir çörək istehsalı müəssisələrinin yaradılması;
- müasir suvarma sistemlərinin və tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması;
- informasiya texnologiyalarının və turizmin inkişafı (turizm marşrutları boyunca infrastrukturun inkişafı, mövsümiliyi azaldan, eləcə də kənd turizmi layihələrinin dəstəklənməsi);
- digər sahələrdə (yüngül, kimya, maşınqayırma, qida və s.) müəssisələrin yaradılması;
- idxaləvəzləyici qida və qeyri-qida məhsullarının istehsalı və emalı müəssisələrinin yaradılması;
- kiçik sahibkarlığın inkişafı.

Kreditlərdən istifadə üzrə güzəşt müddəti, kredit verilmiş hər bir sahibkarlıq subyekti üçün fəaliyyətin xarakterindən asılı olaraq nağd pulun hərəkəti barədə məlumat əsasında müəyyən edilir və kreditin istifadə müddətinin ilk 1/2 dövrünü əhatə edə bilər. Güzəşt müddətində sahibkarlıq subyektləri yalnız faiz borclarını ödəyir, əsas borc üzrə isə hər hansı ödəniş həyata keçirmirlər. Müvəkkil kredit təşkilatları sahibkarlıq subyektləri üçün müəyyən etdikləri güzəşt müddəti barədə Fonda məlumat verməlidir.

**Rəşad SADIQOV**

# Onlayn kargüzarlıq:
# məktub və müraciətlərin göndərilməsi

**2010-cu il martın 1-dən vətəndaşların və vergi ödəyicilərinin vergi orqanlarına İnternet Vergi İdarəsi vasitəsilə onlayn müraciət etməsi imkanı yaradılmış, bu məqsədlə hər bir istifadəçi üçün fərdi elektron qutu ayrılmışdır. İstifadəçilər onlayn kargüzarlıq vasitəsilə etdikləri müraciətlərinin vergi orqanlarında hərəkətini «Əməliyyat tarixçəsi» vasitəsilə real vaxt rejimində izləyə və bu müraciətlərin cavabları ilə elektron qutuları vasitəsilə tanış ola bilərlər.**

Fərdi elektron qutu vergi ödəyiciləri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsinin effektivliyini artırır və ənənəvi üsulla kağız daşıyıcılarında sənədlərin göndərilməsi ilə müqayisədə vaxt və resurs itkilərinin qarşısını almış olur.

Fərdi elektron qutusu olan vergi ödəyicilərinə (istifadəçi kodu/parol/şifrə almış şəxslər) göndəriləcək sənədlər(uyğunsuzluq məktubları, bildirişlər, xəbərdarlıqlar, məlumatlar və s.) imzalanan kimi avtomatik qaydada onun fərdi elektron qutusuna göndərilir. Vergi orqanından göndərilən hər hansı sənədin yalnız kağız daşıyıcısında göndərilməsi, tələb olunan hallar istisna olunmaqla, digər hallarda fərdi elektron qutusu olan şəxslərlə yazışmalar elektron formada aparılacaqdır. Buna görə də mütəmadi olaraq «Onlayn kargüzarlıq» sistemi vasitəsilə elektron qutunu yoxlamaq tövsiyə olunur.

*«Onlayn kargüzarlıq»* vətəndaşlar və vergi ödəyiciləri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsinə imkan verən sistemdir. «Onlayn kargüzarlıq» Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) vasitəsilə Vergilər Nazirliyinin daxili kargüzarlıq sisteminə inteqrasiya olunmuşdur. Ona görə də istifadəçilər göndərdikləri sənədin vergi orqanı daxilində hərəkətini onlayn rejimdə izləyə və icraçının telefon nömrəsini öyrənərək onunla birbaşa əlaqə yarada bilər. Bu sistem üzərindən vergi orqanına göndərilən bütün müraciətlər rəsmi sənəd statusu daşıyır. Bu xidmətdən vergi ödəyiciləri öz aralarındakı yazışmalar üçün də istifadə edə bilərlər. Sistem daxilində hər bir istifadəçi üçün «fərdi elektron qutu» ayrılmışdır. Vergi orqanından istifadəçilərə ünvanlanan məktublar və cavablar həmin qutuya toplanır.

***Vergilər Nazirliyinə elektron sənədlərin göndərilməsi üçün*** vergi ödəyicisi Vergilər Nazirliyindən alınmış istifadəçi kodu, parol və şifrə və ya gücləndirilmiş elektron imzaya (o cümlədən «ASAN imza»ya) malik olmalıdır.

Bu halda vergi ödəyicisi İnternet Vergi İdarəsinə (e-taxes.gov.az) daxil olmaqla Vergilər Nazirliyinin struktur bölməsinə məktub, sorğu, şikayət, təklif, təşəkkür göndərə bilər. Bunun üçün **«Yeni müraciət»** düyməsi basılır. «Kimə» qrafasında Vergilər Nazirliyinin struktur bölməsi seçilir. «Müraciətin növü» qrafasında isə «Məktub», «Sorğu», «Şikayət», «Təklif», «Təşəkkür» bəndlərindən müvafiq olanı seçilir və «Qəbul» düyməsi basılır. Sonra cədvəldə qeyd edilən məlumatlar aşağıdakı elektron formaya doldurulur:

Sənədin ünvanlandığı vergi orqanının adı siyahıdan götürülür.

Sənədin məzmunu və ya təyinatı barədə qısa başlığı seçilir. Sonra «Qoşma faylı əlavə et» keçidi görünür.

Sənədə əlavə ediləcək qoşma sənəd varsa, həmin fayl əlavə edilir. Başlıqda Qoşma sənədin qısa adı göstərilir.

Qeyd edək ki, eyni adlı faylı təkrar daxil etmək mümkün deyildir, əks halda ekrana «Qoşma məlumatlarını düzgün daxil edin» mesajı çıxır. Bir neçə qoşma fayl əlavə edilə bilər. Əlavə edilmiş faylların formatı ixtiyari ola bilər (doc, pdf və s.), lakin əlavə edilmiş faylların ümumi həcmi 5 mb-dən çox olmamalıdır.

Qoşma keçidinə girilərək, «Axtar» düyməsini basmaqla, qoşma fayl tapılıb əlavə edilir.

«Qoşma faylı əlavə et» keçidi basıldıqda ekranda görünür. Boş sahəyə sənədin qısa məzmunu daxil edilir.

Sənədin cavabının alınma forması seçildikdə «Bu ünvana gəlsin», «Kağız formada poçtla» məzmunda düymələr çıxır.

İmza (soyadı, adı, ata adı) rekvizitinin daxil edilməsi məcburidir. Sənədi göndərən şəxsin vəzifəsi daxil edilir. Sonda «İrəli» düyməsi basılır.

Ekrana sənədin təsdiq olunması barədə məlumat çıxır.

İstifadəçi elektron imza ilə daxil olduqda sənədi təsdiq etmək üçün «Tanış oldum, məlumatların doğruluğunu təsdiqləyirəm» ifadəsi qeyd edilir. Bu zaman «İmzala və göndər» düyməsi aktivləşir. Növbəti imzalama mərhələsi gəlir.

İstifadəçi mobil telefonun nömrəsini və istifadəçi İD-sini daxil edir və «Qəbul» düyməsini basır.

Sistem tərəfindən istifadəçinin mobil telefonuna «Yoxlama kodu» göndərilir və o, telefonunda «Yoxlama kodu»nu gördükdə OK düyməsini basır və sonra «ASAN imza» PİN 2 kodunu daxil edir.

Nəticədə istifadəçinin göndərdiyi sənəd imzalanır və ekrana sənədin Vergilər Nazirliyinə göndərilməsi barədə «Bildiriş» çıxır. Bildirişi çap etmək üçün «Çap», bağlamaq üçünsə «Bağla» düyməsi basılır. Sənədin surəti istifadəçinin «Göndərdiklərim» qovluğuna düşür.

**Fəxriyyə İkramqızı**

## 2018-ci ilin aprel ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr**

- 2018-ci il üzrə torpaq vergisinin bəyannaməsini cari ilin may ayının 15-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.
- 2018-ci ilin 2-ci rübü üzrə əmlak vergisinin cari ödəmələrini may ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**2018-ci ilin aprel ayına görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisinin bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisinin bəyannaməsini;
- Mədən vergisinin bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

cari ilin **may ayının 21-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi cari ilin may ayının 21-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- Muzdlu işlə əlaqədar 2018-ci ilin aprel ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin may ayının 21-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir *(ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən cari ilin 2-ci rübü üzrə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir)*.
- Xüsusi notariusların 2018-ci ilin aprel ayı üzrə hesabladığı gəlir vergisi cari ilin may ayının 21-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2-ci rüb üzrə bəyannamə iyul ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2015-ci ilin may və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2018-ci ilin may və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Şotlandiya Breksitdən sonra ƏDV-yə nəzarəti ələ ala bilər

Ölkədə fəaliyyət göstərən analitik mərkəz Avropa İttifaqı (Aİ) qanunvericiliyi üzrə tətbiq olunan məhdudiyyətlər Böyük Britaniyanın Aİ-dən çıxması ilə əlaqədar olaraq aradan qaldırıldıqdan sonra əlavə dəyər vergisini müəyyənləşdirmək səlahiyyətinin Böyük Britaniya hökumətindən alınıb Şotlandiya hökumətinə verilməsi barədə təklif irəli sürmüşdür.

Analitik mərkəzdən bununla bağlı açıqlama verilərək bildirilmişdir: «ƏDV-nin Şotlandiya parlamentinə verilməsi o demək olacaq ki, Şotlandiya parlamenti ilk dəfə 50 faizlik məhdudiyyət həddini keçməklə öz xərclərinin 60 faizinin toplanılmasına cavabdeh olacaq ki, bu da gəlir vergisindən asılılığı əsaslı şəkildə azaltmış olacaq».

ƏDV ilə iqtisadi göstəricilər arasındakı əlaqə Şotlandiyaya münasibətdə bir sıra komissiyaların əlini-qolunu açılmağa qoymur: çünki Aİ qanunvericiliyinə əsasən Şotlandiyaya ƏDV-ni müəyyənləşdirmək səlahiyyətinin verilməsi qadağandır.

2016-cı ildə qəbul edilmiş və Şotlandiyaya vergi səlahiyyətlərinin verilməsini nəzərdə tutan qanun gəlir vergisi üzrə səlahiyyətlərin məhdudlaşdırılmasını ehtiva etməklə ƏDV-dən gələn gəlirlərin 50 faizini Şotlandiya parlamentinə verir. Analitik mərkəzin ehtimalına əsasən, Breksitdən - Böyük Britaniyanın Aİ-dən çıxmasından sonra həm Şotlandiyada, həm də bütünlüklə Böyük Britaniyada belə bir addımın atılmasına siyasi dəstək vermək mümkün olacaq.

İslahatların ideoloqu Alan Makfarleyn vəziyyəti şərh edərək demişdir: «Siyasətçilər artıq belə bir addımın atılmasının faydasını etiraf etmişlər, lakin Aİ-nin qanunvericiliyinin tələbləri ucbatından onun reallaşdırılması hazırda mümkün deyildir. Bu maneəni Breksit aradan qaldıracaq».

# ABŞ dövlət başçısının təyyarəsi Qazaxıstanda vergidən azad edilib

Qazaxıstan parlamenti dövlət təyyarələrinin uçuşları üçün aeronaviqasiya yığımları üzrə ABŞ ilə imzalanmış sazişi ratifikasiya etmişdir.

Saziş bu il yanvarın 12-də Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin ABŞ-a rəsmi səfəri zamanı Vaşinqtonda imzalanmışdı. Sənəd hökumət nümayəndələrini daşıyan dövlət təyyarələrinin qarşılıqlı şəkildə aeronaviqasiya yığımlarından azad edilməsini nəzərdə tutur. «Sazişin müddəalarının yerinə yetirilməsi üçün tərəflər hər bir uçuş üzrə müvafiq diplomatik icazə verəcəklər», - Qazaxıstanın investisiyalar və inkişaf naziri Jenis Kasımbek bildirmişdir.

Sazişdə müəyyənləşdirilmiş normalar tranzit uçuşlarına, eləcə də dövlət məqsədləri üçün istifadə edilməyən təyyarələrə və kommersiya məqsədi daşıyan hər hansı fəaliyyətə şamil edilməyəcək.

# Vaxta və kağıza qənaət etmək üçün dövlət rüsumları iki dəfə azaldılacaq

Rusiyanın Dövlət Rabitə Komitəsi tərəfindən hökumətin tapşırığı ilə hazırlanmış qanun layihəsinə əsasən, kağız arayışlardan və ya çıxarışlardan imtina edib, bu işi elektron qaydada yerinə yetirməyə hazır olan Rusiya vətəndaşları üçün dövlət rüsumlarının ödənilməsində 50 faiz endirim ediləcək.

Elektron arayışlara keçid onların hazırlanmasına sərf olunan vaxtı azaltmağa, tonlarla kağıza qənaət etməyə imkan yaradacaq, eləcə də sənədlərin itirilməsi problemini aradan qaldıracaq.

Qeyd edək ki, indiyə qədər dövlət orqanları elektron arayışları heç də həmişə qəbul etmirdilər. Diskont almaq üçün sifariş verib dövlət xidmətləri portalından (gosuslugi.ru) və ya onunla eyni sistemə aid vahid identifikasiya saytından icazə sənədi almaq və ödəniş etmək lazım gəlirdi.

Rəqəmsal sənədlər elektron imza ilə təsdiqlənir və kağız daşıyıcılardakı sənədlərlə bərabər tutulur. Kağız arayışlar kimi onları da tələb olunan yerlərə elektron formada təqdim etmək mümkündür.

# Honkonqda daşınmaz əmlak alanlar yüksək vergi ödəyirlər



Dünyanın ən cəlbedici məkanlarından olan Honkonqda daşınmaz əmlakın qiyməti həqiqətən də çox bahadır və bu bahalaşma ildən-ilə davam edir. Hazırda bu ölkədə yeni bir evin orta qiyməti 2,05 milyon dollar təşkil edir. Bu göstərici 2017-ci ilin birinci rübü ilə müqayisədə 18 faiz çoxdur. Göstərilən məbləğə tətbiq olunan vergiləri də əlavə etdikdə qiymətlərin «kəllə-çarxa» vurduğunun şahidi oluruq.

«Honkonqa işləmək üçün xaricdən gələnlər, adətən, yaşamaq üçün mənzil kirayələyirlər, - «Deloitte China» şirkətinin vergi üzrə baş meneceri xanım Doris Çik bildirmişdir. - Əks halda, onlar xeyli yüksək məbləğdə vergi ödəməli olurlar». Onun sözlərinə görə, Honkonqda daşınmaz əmlak vergisi faktiki olaraq gəlir gətirən əmlakdan tutulur. Ev sahibləri üçün bu kiçik «hökumət dərəcələri» əmlakın qiymətləndirmə dəyərindən asılıdır.

Hətta ev kirayəyə verilməmiş olsa belə, ev sahibi üçün verginin dərəcəsi «daşınmaz əmlakın kirayəyə verilməsi nəticəsində ehtimal edilən illik gəlirin» 5 faizi həcmində müəyyənləşdirilmişdir. Mart ayında qəbul edilmiş 2018-2019-cu illərin dövlət büdcəsinə əsasən, hazırda bu məbləğ 320 ABŞ dollarından aşağı olduğu təqdirdə, ev sahibi vergidən azad edilir. Daşınmaz əmlakın illik kirayə haqqı üzrə ehtimal edilən gəlir 320 dollardan 380 dallara qədər olduqda isə ev sahibi cəmi 60 dollar ödəyir.

Bununla belə, bir neçə vergi növü də var ki, Honkonqda ev almaq istəyən hər kəsin bu barədə məlumatı olmalıdır. Birincisi, əmlakın alındığı qiymətin və ya bazar qiymətinin 15 faizinə bərabər olan advalor rüsumdur. Qiymət artdıqca bu vergi də artır. Advalor vergisi Honkonqda daşınmaz əmlakın alınması ilə bağlı bütün sövdələşmələrə şamil edilir, lakin başqa daşınmaz əmlak obyektləri olmayan vətəndaşlar həmin verginin dərəcəsinin aşağı salınmasına ümid bəsləyə bilərlər.

Alıcı vergisi Honkonqda daşınmaz əmlak alan xarici vətəndaşlardan tutulur və obyektin qiymətinin 15 faizini təşkil edir. Bu, nisbətən yeni vergidir, 2010-cu ildən bəri tətbiq olunur və əsas məqsəd Honkonq daşınmaz əmlakının xarici investorlardan qorunmasıdır. Qeyd etməyə dəyər ki, alıcı vergisini xarici şirkətlər də ödəməlidirlər. Bu isə o deməkdir ki, xarici investorlar alğı-satqı əməliyyatını korporasiyalar vasitəsilə apardıqda belə, vergi ödəməkdən yayına bilmirlər.

Daha bir vergi isə xüsusi təyinat daşıyır: möhtəkirliklə mübarizə məqsədilə tətbiq edilir. Bu vergi daşınmaz əmlak satın alındıqdan sonra üç il müddətində satıldığı halda tutulur. Xüsusi verginin üç dərəcəsi tətbiq olunur: daşınmaz əmlak alındıqdan sonra altı ay ərzində satışa çıxarıldıqda verginin dərəcəsi 20 faiz təşkil edir, bu müddət bir il olduqda verginin dərəcəsi 15 faiz, iki ilə çatdıqda isə 10 faiz təşkil edir.

Beləliklə, Honkonqda tutulan vergilərin maksimum dərəcələri tətbiq edilməklə yeni bir ev almaq istəyən şəxs əvvəlcədən 3,075 milyon ABŞ dolları məbləğində vəsaiti ayırıb bir kənara qoymalıdır.

# Danimarka elektrik enerjisi vergisini aşağı sala bilər

Vergilər naziri Karsten Lauritsen hökumətə elektrik enerjisi istehlakı üçün tutulan verginin səviyyəsini aşağı salmağı təklif etmişdir. Avropa ölkələri arasında elektrik enerjisi vergisinin ən yüksək olduğu yer Danimarkadır.

Vergilər Nazirliyinin məlumatına əsasən, ev təsərrüfatlarında işlədilən elektrik enerjisi üçün hesabın təxminən 40 faizi vergiyə gedir və bu daxilolmalar Danimarka hökumətinə bərpa oluna bilən elektrik enerjisi mənbələrinin inkişafına subsidiya ayırmağa imkan verir.

Bununla belə, nazirliyin apardığı araşdırmaya görə, hazırda Danimarkada istehlak edilən elektrik enerjisinin təxminən yarısı alternativ mənbələrdən gəldiyi nəzərə alınmaqla vergini belə yüksək səviyyədə saxlamaq üçün zəruri ehtiyac yoxdur.

«Biz görürük ki, elektrik enerjisinə tətbiq olunan yüksək vergi davamlı inkişaf məqsədi daşıyan dəyişikliklərə, enerjinin bərpa olunan mənbələrdən alınmasına kömək etmir, bundan əlavə, bu həm istehlakçılar, həm də hökumət üçün artıq yük yaradır, - Lauritsen vurğulamışdır. - Ona görə də elektrik enerjisi vergisini əsaslı şəkildə azaltmaq məqsədəuyğundur».

Nazir qeyd etmişdir ki, verginin azaldılması sayəsində əmələ gələn boşluğun əvəzi doldurulacaq, çünki iqtisadi artım ümumi vergi məbləğinin artımına şərait yaradacaq.

# Yunanıstan hökuməti vergiləri azalda bilmir

Afinada keçirilmiş 14-cü Vergi Forumunda ictimaiyyətə açıqlanmış məlumata əsasən, Yunanıstan kölgə iqtisadiyyatının yüksək göstəricilərinə görə Avropa İttifaqı (Aİ) ölkələri arasında dördüncü yeri tutur (Kölgə iqtisdiyyatı dedikdə dövlətdən və vergi orqanlarından gizli həyata keçirilən sahibkarlıq fəaliyyəti nəzərdə tutulur).

2009-cu ildən başlayaraq Aİ ölkələrində kölgə iqtisadiyatının payı 19,2 faizdən 16,7 faizə enmişdir. Yunanıstan iqtisadiyyatında isə bu müddətdə tamamilə əks proses baş vermişdir: ümumi iqtisadiyyatda kölgə iqtisadiyyatının payı 23,2 faizdən 28,4 faizə çatmışdır.

2013-cü ildə Aİ-nin «boz» iqtisadi zona üzrə dövriyyəsi 2,15 trilyon avro təşkil edirdi, Avropa ölkələrinin dövlət büdcələrinin itkisi isə 454 milyard avro olmuşdu.

Yunanstanda kölgə iqtisadiyyatının göstəricilərinin yüksək olması başqa bir problemin yaranmasına səbəb olmuşdur. 2016-cı ildə bu ölkə dörd nəfərdən ibarət ailə üzrə vergi yükünün ağırlığına görə altıncı yeri tuturdu. Hazırda Yunanıstandakı hər bir ailə təsərrüfatından tutulan verginin orta məbləği 38,2 faiz (sosial yığımlar nəzərə alınmadan) təşkil edir. Bu göstərici İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatana (OECD) üzv ölkələrin göstəricilərindən əhəmiyyətli dərəcədə yüksəkdir.

Bununla belə, Baş nazirin müavini Dimitris Lyakosun sözlərinə görə, hazırda hökumət vergi və yığımların azaldılmasına imkan görməsə də, dəyişikliklərin aparılması qaçılmazdır. Bu məqsədlə 2020-2021-ci illərdə 3,5 milyard avro vəsait ayrılacağı planlaşdırılır.

krossvord



**Yuxarıdan aşağı:** 1.Qəbələ rayonu ərazisindən axan çay, Türyançayın sol qolu; 2.Avtomobil markası; 3.Dünyanın ən məşhur qülləsi; 4.Sakit okeanın şimalında dəniz; 5.Xalq şairinin adı, «Nəsimi» poemasının müəllifi; 6.Macar xalq rəqsi; 9.Qədim dövrdə misirlilərin inancına görə günəş tanrısının adı; 13.Bağırsaq infeksiyası; 15.Kiminsə işinin təşkilinə kənardan təsir göstərən şəxs, sözün kökü «müdafiə etmək» mənasını verir; 16.Qammanın səkkizinci pilləsi, habelə müxtəlif yüksəklikdə olan ən yaxın eyniadlı səslər arasındakı interval; 17.Azərbaycan mifologiyasında xeyirxahlığın, yeni həyatın və dirçəlişin qədim rəmzi; 18.Teatrda tamaşa zalının bir hissəsi; 20.Baltik dənizinin şərq sahilində dövlət; 21.Alqış. **Soldan sağa:** 1.İdman komanda oyunu; 5.Cütdırnaqlılar dəstəsinin boşbuynuzlular fəsiləsindən heyvan; 7.Bənzərliyə, oxşarlığa, analogiyaya əsasən söz və ya ifadənin məcazi mənada işlənməsi; 8.Türk mifologiyası və xalq inancında vampir; 10.Açıq dənizdə (okeanda) dayaz laqunanu əhatə edən alçaq mərcan adası; 11.«Bir cənub şəhərində» filmində Rəna obrazını canlandıran aktrisanın adı; 12.RF-nin Saxalin vilayətində şəhər; 14.Tünd alkoqollu içkilərin ümumi adı; 19.Arxaya uça bilən yeganə quş; 21.Biosenozun, assosiasiyanın, həmçinin daha böyük taksonların bitki və heyvanat aləminin növ məcmusu (flora və fauna); 22.Lerik rayonunda kənd; 23.Macarıstanın paytaxtı; 24.Hüseyn Cavidin dram əsəri; 25.Rütubəti ölçən cihaz.



Azərbaycan mifologiyasında xeyirxahlığın, yeni həyatın və dirçəlişin qədim rəmzi

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Purizm; 2.Artikul; 3.İfrat; 4.Takoma; 5.Şaman; 6.Həmidə *(Ömərova)*; 9.Arpa - Qırtıckimilər fəsiləsinə aid bitki cinsi; 13.Yuxu; 15.Embrion; 16.İmamət; 17.Stator; 18.Plimut; 20.Lider; 21.Britt. **Soldan sağa:** 1.Plagiator; 5.Şah; 7.Ritorika; 8.İmam; 10.Zəkat; 11.Marinad; 12.Klayd; 14.Baget; 19.Malaxit; 21.Babil; 22.Mədə; 23.Stoisizm; 24.Tir; 25.Peritonit.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan:
AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Vergi əməkdaşları arasında şahmat turniri davam edir

Vergi xidməti əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-cü ildönümünə həsr olunmuş 13-cü ənənəvi şahmat turniri davam edir.

Gənclər və İdman Nazirliyinin və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə Vergilər Nazirliyi tərəfindən təşkil olunan turnirdə finalçılar və yarımfinalçılar müəyyənləşib.



Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşı Məzəddin Allahverdiyev və 12 saylı Ərazi Vergilər Departamentinin əməkdaşı Ayaz Məmmədov rəqiblərinə qalib gələrək finala yüksəliblər.

8 saylı Ərazi Vergilər İdarəsinin (ƏVİ) bölmə rəhbəri Ramil Abasov ilə 14 saylı ƏVİ-nin fond hesablı müfəttişi Məzahir Şəmilovun qarşılaşmasında isə üçüncü yerin qalibi müəyyənləşəcək. Olimpiya sistemi üzrə keçirilən turnir may ayının 5-də başa çatacaq.

# «Shamkir Chess 2018» superturniri başa çatıb

Məşhur şahmatçı Vüqar Həşimovun xatirəsinə həsr olunan «Shamkir Chess 2018» turniri aprelin 30-da başa çatıb.

SHAMKIR 2018 Chess in the memory of VUGAR GASHIMOV

Turnirdə dünya çempionu Maqnus Karlsen (2843), eləcə də Şəhriyar Məmmədyarov (Azərbaycan, 2814), Sergey Karyakin (Rusiya, 2778), Dinq Liren (Çin, 2778) Aniş Giri (Hollandiya, 2777), Veselin Topalov (Bolqarıstan, 2749), Teymur Rəcəbov (2748), David Navara (Çexiya, 2745) Radoslav Voytaşek (Polşa, 2744) Rauf Məmmədov (Azərbaycan, 2704) kimi yüksək reytinqə malik şahmatçılar çıxış ediblər.

İsveçrə sistemi üzrə doqquz turdan ibarət «Shamkir Chess 2018» turnirinin qalibi şahmat üzrə dünya çempionu Maqnus Karlen olub.

O, deyib: «Vüqar Həşimovu yaxşı şahmatçı kimi tanıyırdım. Onun adına belə superturnirin keçirilməsi çox yaxşıdır. Deməli, Azərbaycan Vüqarı unutmur. Şəmkir turniri onun adına layiq olan səviyyədə təşkil edilir. Şəmkirdə olduğum müddətdə mənə və komandama kömək edən insanlara «Çox sağ ol» deyirəm. Şəmkirdə üç dəfə qalib gəlmişəm. Ona görə həmişə buraya qayıtmağa hazıram. Şəmkirdə, ümumiyyətlə Azərbaycanda şahmatı çox sevirlər».

# Formula-1 Azərbaycan Qran-Prisinin Bakı trekində veloyürüş keçirilib

Formula-1 Azərbaycan Qran-Prisinin əsas mərhələsi başlamamışdan əvvəl yarışın keçirildiyi Bakı trekində Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının nəzdindəki Velosiped İdman Klubunun təşkilatçılığı, Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin və Azərbaycan Avtomobil Federasiyasının dəstəyi ilə veloyürüş təşkil olunub.



Veloyürüşdə DTX-nin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-leytenant Mədət Quliyev, London-2012 Yay Olimpiya Oyunlarının cüdo yarışlarının qalibi Elnur Məmmədli, qazaxıstanlı Olimpiya çempionu, London-2012-nin şosse velosipedi üzrə qrup ötüşməsinin qızıl medalçısı, «Astana» Dünya Turu komandasının baş meneceri Aleksandr Vinokurov, AzVİF-in baş katibi Fərhad Əliyev, həmçinin DTX-nin Heydər Əliyev adına Akademiyasının nəzdindəki Velosiped İdman Klubunun üzvləri iştirak ediblər.

# F1 Danimarka Qran-Prisinin təşkilatçıları təcrübə əldə etmək məqsədilə Bakıda olublar

Kopenhagen 2020-ci ildə Formula-1 yarışlarının növbəti mərhələsini keçirməyi planlaşdırır. Ötən həftəsonunda mərhələnin təşkilatçıları Helqe Sander və Lars Seyer Kristensen təcrübə öyrənmək məqsədilə Bakıya gəliblər.

Helqe Sander F1 Azərbaycan Qran-Prisinin promouteri ilə görüşündən danışıb. Təşkilatçının sözlərinə görə, promouter Formula-1 yürüşünü keçirməyin çətinlikləri, layihələndirmənin xüsusiyyəti, texniki yol və digər məsələlər barədə məlumat verib. Kopenhagendə trası German Tilkenin arxitektura bürosu layihələndirəcək. O, müasir avtodromların əksəriyyətinin yaradıcısıdır. German Tilke deyib: «Kopenhagen Formula-1 mərhələsinin keçirilməsi üçün əla yerdir. Bu, unikal şəhərdir, tras qəşəng alınacaq, yürüş isə qədim binaların fonunda keçiriləcək».

# Qran-Pri tamaşaçılarının sayı 31 faiz artıb

Paytaxtımızda keçirilən Formula-1 Azərbaycan Qran-Pri yarışlarının iqtisadi baxımından əhəmiyyət daşıyan cəhətlərindən biri də xarici turist axınına şərait yaratması, turizm baxımından ölkənin imicini yüksəltməsidir.

Formula-1-in mətbuat xidmətinin «Twitter» hesabında yayılan məlumatına əsasən, bu il yarışları izləmək üçün Bakıya 94 min tamaşaçı gəlmişdir.

Beləliklə, Bakı mərhələsinə gələnlərin ümumi sayı ötən illə müqayisədə 31 faiz artıb.

Xatırladaq ki, ötənilki Azərbaycan Qran-Prisini izləməyə 71.451 nəfər gəlmişdi. Qran-Pri çərçivəsində Formula-2 yarışları da keçirilib.

## mozaika

### texnologiya

# Uşaqlar üçün smartfon və planşet

«Archos» şirkəti azyaşlı istifadəçilər üçün «Junior» qurğular seriyasını təqdim edib. Bu seriyaya yaşı üçdən yuxarı uşaqlar üçün «Junior Tab» planşeti və yeddidən yuxarı uşaqlar üçün «Junior Phone» smartfonu daxildir.



İstehsalçıların məlumatına görə, təqdim edilən qurğularda aparat konfiqurasiyası optimallaşdırılıb və xüsusi proqramlar: valideyn nəzarəti vasitələri və «Qustodio»dan veb-səhifələrin filtri (bir il ödənişsiz), axtarış sistemi, dil, elm və incəsənətin sirlərinə yiyələnmək üçün proqramlar, musiqi dinləmək, video izləmək üçün proqram təminatı, proqramlaşdırma vasitələri quraşdırılıb.

Hər iki cihaz «Android 7 Nougat» mobil əməliyyat sisteminin idarəetməsi altında işləyir. Planşet və smartfonun 2018-ci ilin iyununda Avropada 79,99 avroya satışa çıxarılması planlaşdırılır.

### araşdırma

# Evlərində zəngin kitabxana olan uşaqlar...

İspan alimlərinin apardıqları araşdırmaların nəticələrinə əsasən, onlar gələcəkdə daha savadlı və ağıllı olurlar. Evində ən azı 500 kitab olan uşaq daha mədəni atmosferdə böyüyür və daha zəngin dünyagörüşünə sahib olur. İspaniyanın bütün ziyalı ailələri evlərində kitabxana yaradaraq övladlarını kiçik yaşlardan oxumağa maraq oyadır.

Həmçinin kitaba meyilli uşaqlar müasir qadjetlərdən uzaq olurlar, bu da onların əsəb sisteminə müsbət təsir edir.

Təhsil alanların bilik səviyyəsini ölçən PİSA-nın (Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı) apardığı araşdırmalarda göstərib ki, 15 yaşlı uşaq ildə azı 11 kitab oxuyarsa, keçirilən testlərdə minimum 423 bal toplayar. PİSA sorğusunda hər 40 bal bir təhsil ilinin hər fənn üzrə ümumi nəticələrinə bərabər ölçülür.

Bu gün qədim köklərə malik və ya istənilən ispan ziyalısının evində azı 50 kitab və bir musiqi aləti var. Belə ailələrin övladlarının ümumi bilik səviyyəsi digərlərindən yüksəkdir.

İspaniya hökuməti ailələrdə kitab sayının və uşaqların kitaba marağının artırılması üçün müxtəlif sosial layihələr həyata keçirir. Bunlardan biri də gənclərin daha çox istifadə etdikləri metro vaqonlarında müxtəlif əsərlərdən kiçik hissələrin nümayişidir.

### iqlim

# Buzlaqlar «qar topu» ilə qorunacaq

Qlobal istiləşmə ilə əlaqədar olaraq İsveçrədəki Alp buzlaqları tədricən əriməyə başlayıb.



Buzlaqların tamamilə əriməsi yaşayış məntəqələrində dağ gölləri və quyuların quruması ilə nəticələnə bilər.

Niderlandın Utrexta Universitetinin bir qrup alimi İsveçrənin cənub-şərqində o qədər də böyük olmayan buz dağlarını qorumağı təklif edir. Bunun üçün onlar yayda əriyən xizək yollarının bərpası üçün istifadə edilən «qar topları» ilə buzlaqları atəşə tutmağı məsləhət görürlər.

Alimlərin fikrincə, qalınlığı bir neçə santimetr olan süni qar örtüyü günəş istiliyini əks etdirmir və buzu əriməkdən qoruyur. Layihə hələlik maliyyə mənbəyini tapmayıb. Bu, baş tutacağı təqdirdə 4 min «qar topu» tələb olunacaq.

### mədəniyyət

# Bakıda İtaliya Opera Günləri

Mayın 3-6-da keçiriləcək İtaliya Opera Günləri Cakomo Puççininin «Madam Batterflay» operası ilə açılacaq. Operaya məşhur italyan dirijoru Yakopo Sipari di Peskassero dirijorluq edəcək. Madam Batterflay partiyasını Silvana Froli (İtaliya) ifa edəcək.

İtaliya Opera Günləri çərçivəsində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Romanın «Cara İtalia, Alfin di Miro» Opera Teatrı tərəfindən C.Rossiniyə həsr olunmuş sərgi açılacaq. Sərginin ekspozisiyasında C.Rossininin musiqi əsərləri ilə bərabər, onun bədii yaradıcılığını əks edən əsərlər, habelə İtaliyanın tarixi səhnə geyimləri və məşhur rəssam Corcio de Kirikonun əsərləri təqdim ediləcək. Sərgi mayın 3-dən 20-dək davam edəcək.

Mayın 4-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının kamera və orqan musiqisi zalında opera orqan musiqisi konserti olacaq. Konsertdə məşhur orqançalan, «I Pomeriggi Musicali» orkestrının bədii rəhbəri Mauritsio Salerno geniş proqramla çıxış edəcək.

Layihə çərçivəsində «Sevilya bərbəri» operası oynanılacaq. Operaya məşhur italyan dirijoru Alessandro Kalkanilya dirijorluq edəcək. Fiqaro partiyasını bariton səsli ifaçı Daniele Kaputo təqdim edəcək.



### cəmiyyət

# İstanbulda «Azərbaycana musiqi şöləni!»

Böyük bəstəkarımız Qara Qarayevin anadan olmasının 100 illiyinə həsr olunmuş konsertdə konsertmeyster Nərgiz Əliyevanın müşayiəti ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistləri xalq artisti Samir Cəfərov, əməkdar artist Afaq Abbasovanın ifaları dinlənilib. «Azərbaycana musiqi şöləni!» şüarı ilə keçirilmiş konsert musiqisevərlər tərəfindən hərarətli alqışlarla qarşılanıb.



### Müdriklər deyib ki...



***«Ən mühüm olan –insana düşünməyi öyrətməkdir».***

*Bertold Brext (1898-1956)*